Telman Orucov

UZAQ VƏ YAXIN MEKSİKA

Meksika ilə ilk tanışlıq

Latın Amerikasının ən böyük dövlətlərindən biri, Mərkəzi Amerikanın isə aparıcı dövləti olan Meksika ilə tanışlığım yeniyetməliyimdən – bu ölkənin romantik kinofilmlərindən başlamışdı. «Məhəbbət görüşü» filminin qəhrəmanı, inqilabçı Roman, ölüm təhlükəsinə baxmayaraq, vurulduğu qıza söz verdiyinə görə onunla rəqs etmək üçün görüşə gəlmiş və orada həlak olmuşdu. O, öz mərdliyinə sadiqliyini həyatına olacaq qəsddən də yüksək tutmuşdu. Bir obrazda meksikalılara xas olan nəcib xüsusiyyətlərin ümumiləşdirilməsi qənaətinə gəlmişdim. Böyük sovet kinorejissoru Sergey Eyzenşteynin «Meksika» sənədli filmi də bu ölkə və yenilməz xalq haqqında təsəvvürlərimi genişləndirmişdi. Sonralar isə Nobel mükafatı laureatı Oktavio Pasın poeziyası da mənə güclü təsir göstərməmiş qalmamışdı.

Meksikalılarla yaxın tanışlığım isə 1983-ci ildə SSRİ-yə qonaq gəlmiş Meksika parlament nümayəndələri ilə görüş və bir neçə gün davam edən ünsiyyət hesabına mümkün olmuşdu. 1982-ci ildə Heydər Əliyevin başçılıq etdiyi SSRİ Ali Sovetinin nümayəndə heyəti Meksikada səfərdə olmuş və eyni səviyyədəki nümayəndə heyətinin SSRİ-yə və həmçinin Azərbaycana gəlməsi dəvətini o, Meksika Konqressinə çatdırmışdı. Sonrakı ili meksikalıların səfəri baş tutmuşdu və onları SSRİ Ali Sovetinin Millətlər Sovetinin sədr müavini və SSRİ Meyvə-Tərəvəz Təsərrüfatı nazirinin birinci müavini N. M. Zayçenko və SSRİ-nin Meksikadakı səfiri R. A. Sergeyev müşayiət edirdilər. Heydər Əliev isə Azərbaycana rəhbərliyini artıq başa vurmuşdu, ölkə miqyasında yüksək vəzifəyə irəli çəkilərək, Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Moskvada işləyirdi. Meksika parlamentinin nümayəndə heyyəti Moskvaya gəldikdən sonra səfər proqramına müvafiq olaraq Bakıya təşrif buyurmuşdu.

Mərkəzi Komitə Bürosunun qərarı ilə Azərbaycanda nümayəndə heyəti ilə işləmək mənə həvalə olunmuşdu. Çünki xarici qonaqlarla, biznes dairəsinin aparıcı adamları ilə artıq müəyyən iş təcrübəm var idi. Bir neçə il əvvəl Bakıya gəlmiş ABŞ-ın görkəmli iş adamı Con Kristalı uzun müddətli səfərdə müşayiət etmək eyni qaydada mənə tapşırılmışdı. Con Kristalın o dövrdə Sov.İKP MK katibi olan M. S.

Qorbaçovla xoş münasibətləri var idi və onun əmisi, həm də var-dövlətinə varis olduğu Qarst Ayova ştatında vaxtilə iri taxılçılıq təsərrüfatlarının sahibi olmuşdu və N. S. Xruşşov ABŞ-da səfərdə olduğu vaxt onun qarğıdalı plantasiyasına da getmişdi. Qarstın dünyada tanınması isə bir fotoşəkillə əlaqədar idi. Xruşşov plantasiyaya girəndə jürnalistlər də tarlaya hücum çəkmiş, qarğıdalı bitkisinin gövdələrini tapdaladıqda, Qarst bir qarğıdalı kolunu çıxarıb, onunla jurnalistləri döyüb, sahədən qovmağa başlamışdı. Bu fotoşəkil bütün dünya mətbuatını dolaşmışdı və qocaman fermeri beləcə məşhurlaşmışdı.

Con Kristal ucaboylu, iri bədənli adam idi. Biz onunla Lənkəranda olduq və yerli təbiət, Qızılağac qoruğu, Xanbulan süni gölü ona çox xoş gəlmişdi, həm də mətbəx nümunələri onu xeyli təəccübləndirmişdi. Meşədəki bulaq başında təşkil olunan piknik isə ona əsl ləzzət vermişdi. Ümumiyyətlə, Azərbaycanda olmağından çox razı qalmış və respublika rəhbərliyinə göndərdiyi məktubda razılığını bildirmiş və onu müşayiət edənə təşəkkürünü çatdırmaq sözlərini əlavə etməyi də unutmamışdı.

Bundan başqa, İsveçrə, Fransa, İtaliya və Yunanıstan işgüzar dairələri ilə danışıqlar aparmış, onlarla iqtisadi əməkdaşlığın binövrəsini qoymuşduq. İsveçrədən konserv sənayesi üçün avadanlıq, İtaliadan bizim təklifimizlə müvafiq texnologiya işlənib hazırlandıqdan sonra nar emalı üçün iki bütöv zavod alınmışdı. Bu, nar şirəsinin keyfiyyətinin xeyli yaxşılaşmasına şərait yaratmaqla yanaşı, zavodlar işə düşdükdən sonra əhalidən Azərittifaq tərəfindən tədarük edilən 100 min ton miqdarındakı narın elə mövsüm ərzində sürətli və çox keyfiyyətli emalını mümkün etmişdi. Fındığın çeşidlənməsi və emalı üçün İtaliyanın başqa firmasından fındıq zavodu, Yunanıstandan isə zeytun yağı istehsal edən zavod alınmışdı. Bu tədbirlər respublikada konserv və digər emal müəssisələrini geniş tərəqqi yoluna çıxarmışdı. Bakıda fransız iş adamları ilə görüşümüz olmuş, onlarla işgüzar əlaqələr yaratmışdıq. Beləliklə, əcnəbi qonaqlarla və iş adamları ilə təmasda olmaq adi bir praktiki iş sferasına daxil olmuşdu. Onu da qeyd etmək lazımdır ki, 1980-ci illərin birinci yarısında respublika rəhbərliyi aqrar-sənaye kompleksinin sürətli inkişafına böyük diqqət və qayğı göstərirdi, bizim bu sahədəki müsbət təşəbbüslərimizə də daim dəstək verirdi. Respublika rəhbəri kimi Heydər Əliyev bütün sahələrdə olduğu kimi, bu kompleksdəki novator dəyişikliklərin başında dururdu, onun əli daim iqtisadiyyatın geniş sferasının nəbzi üzərində olurdu. Respublikada bu ənənə tam intensivliklə olmasa da, Qorbaçov ölkə rəhbərliyinə gələnə qədər davam etdi. Azərbaycanda işlərin yüksək səmərəliliyini görən İttifaq nazirliyi də investitsiya və xarici valyuta ayrılması barədəki xahişlərimizi müsbət qarşılayırdı. Qorbaçov hakimiyyətə gələndə isə iqtisadi inkişafı "sürəttləndirmə" şüarını irəli sürsə də, reallıqda onun əməli inkişafa "dayan" göstərişinə çevrilmişdi. İqtisadi tənəzzül böyük sürət götürdü, ölkədə ciddi ərzaq qıtlığı yarandı, bunlara özü bilavasitə günahkar olduğu halda, onun mənbəyi timsalında diqqəti, Brejnev dövrünün özünün adlandırdığı "durğunluğuğuna" yönəltməyə cəlb etmək yolunu tutmuşdu. Ölkədə nüfuzü kəskin surətdə aşağı

düşdüyü halda, Qərbdə Qorbaçov (onu pərəstiş ifadəsi kimi orada “Qorbi” adlandırırdılar) az qala qəhrəman qiyafəsində təsvir edilirdi.

Meksikalı qonaqlar o vaxtlar ən yaxşı otel sayılan «Moskva» mehmanxanasında yerləşdirilmişdilər. Otelin restoranında ilk nahar vaxtı mən mayyaları, atstekləri, axırıncıların paytaxtı Tenoçtitlanı «xoş gəldiniz!» sağlığında xatırlayanda, qonaqlar təəccüblərini gizlətməyərək, doğma ölkələri haqqında xoş sözlərdən məmnunluqlarını bildirdilər. Bu da aramızda səmimi münasibətin yaranmasına səbəb oldu. Yəqin ki, İttifaq nazirinin müavini olan Zayçenko da məni xeyli müddət tanıdığından, onlarla müəyyən fikir mübadiləsi aparıbmlş. Bakını xeyli gəzdilər və bir gün biz Neft Daşlarına getdik. Xəzər dəniz Neft Birliyinin rəisi, məşhur neftçi, mərhum Qurban Abbasovun özü də yaxtasında bizimlə gedirdi. Biz estakadaya qədəm basdıqda, bu, meksikalılara elə bir təsir bağışlamadı, axı o vaxtlar artıq Meksika körfəzində su altındakı dərin qatlardan neft çıxaran iri, müasir platformalar mövcud idi. Xəzərdə isə neft 10-15 metrlik su qatının altından çıxarılırdı. Lakin Azərbaycanın dəniz nefti hasilatına görə öyünməyə də haqqı var idi, 1949-cu ildə buranın işə salınması ilə respublikamız bu qeyri-adi, həm də mühüm işin pionerlərindən biri olmuşdu. Texniki tərəqqidə isə biz geri qalırdıq və hətta «Amerika» jurnalının 1972-ci ildəki SSRİ-nin 50 illiyinə həsr olunmuş xüsusi nömrəsində ölkənin nailiyyətləri istehza qaydasında təhlil edildiyindən, Neft Daşları da dünyanın digər dəniz neft yataqları ilə müqayisədə, müasir zavodların fonundakı köhnə su dəyirmanı kimi lağ obyektinə çevrilmişdi.

1970-ci illərin sonunda Azərbaycanda fransızların köməyi ilə Dərin Özüllər zavodu tikilməyə başlandı və Xəzərdə dərin su qatı altında neft hasilatına imkan verən müasir qazma-buruq platformaları istehsal edilməsinə start verildi. İndi Xəzər qazmaçıları üçün yeni daha məhsuldar yataqlarda 150 metrlik su qatı altından neft çıxarmaq da elə bir problem deyildir. 1984-cü ildən geniş fəaliyyətə başlayan Dərin Özüllər zavodu indi nəinki ölkəmizin, hətta bütün Xəzər hövzəsinin ən iri və müasir texnologiyaları tətbiq etməsi və sənaye potensialının çox böyük miqyası ilə seçilən müəssisəsidir. Bugünkü dəniz neftçilərinin karbohidrogenlər hasilatında qazandıqları nailiyyətlərdə Dərin Özüllər zavodu fəhlələrinin, mühəndis-texniki işçilərinin, bu böyük kollektivin hər bir üzvünün, mübaligəsiz olaraq, samballı payı vardır və əldə edilən uğurlarla geoloqlar, qazmaçılar və hasilatçılar kimi onların da öyünməyə haqqları olduğunu inkar etmək olmaz. XXI əsrin birinci onilliyində Azərbaycanda neft istehsalı sıçrayışla inkişaf edib, 2010-cu ildə 50 milyon ton səviyyəsinə çatması aparılan digər səmərəli işlərlə yanaşı, dənizdə yeni daha zəngin yataqların kəşfi və onların istehsal dövriyyəsinə daxil edilməsinin birbaşa nəticəsi idi.

Meksikalıların marağına estakadada əkilmiş aqavalar səbəb oldu və onlar zarafatla dedilər ki, siz onun kökündən tekila arağı da istehsal edə bilərsiniz. Qonaqlar Azərbaycan dəniz neftçilərinin, Xəzərin şıltaqlığına baxmayaraq, çətin şəraitdə yanacaq hasil etmələrini həqiqi qəhrəmanlıq nümunəsi kimi qeyd etdilər və səfərdən bütünlüklə razı qaldıqlarını bildirdilər. Doğrudan da, dəniz neftçiləri

Xəzərdə stixiyanın qəddar vendettasına qarşı mübarizədə bəzən hətta qurbanlar versələr də, axı onlar özlərini daim təbiətin qəddarlığı timsalındakı Stsilla və Xaribda arasına düşmüş kimi hiss edirlər, Heraklın igdlikləri ilə müqayisə edilə biləcək fədəkarlıq və yenilməzlik göstərirlər. Bu nəcib insanların böyük fayda verən dəlisovluğu himnlərdə vəsf olunmağa layiqdir. Dəniz allahı Poseydon belə, bunu müşahidə etdikcə, yəqin ki, vəcdə gəlir, Xəzər neftşilərinin bu igidliyinə biganə qalmaq istəmir. Bethoven kimi qüdrətli bəstəkarımız olsaydı, onların şərəfinə onunkuna bənzər bir "Sevincə həsr olunan oda" yazardı, özü də onu təkcə öz adamlarımız oxumazdı, bu şərqi ən azı neft istehsalında bizimlə əməkdaşlıq edən digər ölkələrə də yayılardı.

Yeddi il sonra, 1990-cı ilin noyabrında Meksikada Azərbaycan mədəniyyəti günləri keçirildi və nümayəndə heyətinə rəhbərlik Mərkəzi Komitə katibi kimi mənə etibar edilmişdi. Nümayəndə heyətinin tərkibinə rəssam Oqtay Sadıqzadə, mərhum bəstəkar Ramiz Mirişli, AzərTAc-ın mərhum sədri Azad Şərifov, görkəmli müğənni Fidan Qasımova daxil idi. 11 il əvvəl mən Niderlandda Azərbaycan günləri keçirilərkən də qrupa rəhbərlik etmiş, bu səfərdə də mərhum bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi musiqiçilər kollektivinin, məşhur tarzən Ramiz Quliyev və kamançaçı Şəfiqə Eyvazovanın ecazkar sənəti holland tamaşaçılarına güclü təsir göstərmişdi.

Biz Moskvadan təyyarə ilə Meksikaya uzun yol getməli idik. Əvvəlcə İrlandiyanın Şennon təyyarə limanında olduq, sonra Atlantik okeanı üzərindən uçub keçəndən sonra Kubanın Havana beynəlxalq limanına endik və bir saat ərzində dəhşətli rütubətli və isti havadan cana doyub, Mexikoya yollandıq. Beynəlxalq aeroport meqapolisin kənarında, şəhərin daxilindədir. Bizi çox sayda jurnalistlər qarşıladı və pilləkəndən düşən kimi mənimlə intervyünü videoyaya çəkdilər və bizi ölkələrinə dəvət edən ev sahiblərinin dediyinə görə, bir neçə televiziya kanalı bizim gəlişimizi və intervyünü həmin axşam göstəribmiş.

Lakin Mexikonun da isti havası bizi boğazın ağrıması, öskürəyə tutulmaqla qarşıladı və bu vəziyyət iki gün davam etdi. Bizi başa saldılar ki, bu şəhərdəki smoqun təsirinin əlamətidir və tanış olmayanlar üçün adi haldır. Boğucu havaya da öyrənmək olur və ondan sonra elə bir diskomfort hiss etmirsən. Bu yerdə məşhur fransız filosofu Şarl Monteskyenin «Qanunların ruhu» əsərindəki bir epizod yada düşür. Şimali Amerikanın cənubundakı Missisipi deltası olan ərazini də əhatə edən Luiziananı fransızlar məskunlaşdırdıqdan sonra bataqlıqdakı metan qazını udan hindulara yazıqları gəldi və onları bataqlıq sahədən çıxarıb, təmiz havası olan dağ yamacına köçürdülər. Hindular xəstələnib ölürdülər. Məlum oldu ki, hinduların ağ ciyərləri metan qazına necə öyrənmişdirsə, dağın təmiz havası ilə nəfəs almağı bacarmır və bu, onların xəstələnmələrinə səbəb olur. İndi də biz Mexikonun nəfəs almaq üçün çətin olan çirkli havasına bronxlarımızı və ağciyərlərimizi adət etməyə öyrədə bilmişdik.

Mexiko şəhəri vaxtilə atsteklərin göl üzərində tikdikləri paytaxt Tenoçtitlanın ərazisində – 2240 metr hündürlükdə yerləşir. Mexiko aqlomerasiyasında 21 milyon əhali yaşayır, dünyanın ən çox sakini olan iri şəhərlərindən biridir. Bu şəhərdə avtomobil də çoxdur. Yəqin ki, onların işlətdiyi benzin də ABŞ-da olandan fərqli olaraq, yaxşı təmizlənmiş deyildi. Həmçinin dağ havası seyrək olduğundan daha tez çirklənməyə məruz qalır. Ancaq mexikolulara bu barədə həsəd aparmaq olar, onlar belə zərərli havaya da dözürlər.

Bizi şəhərin mərkəzində Paseo- de- la- Reforma küçəsində, İstiqlaliyyət abidəsinin lap yaxınlığındakı müasir oteldə yerləşdirdilər. Oteldən azacıq aralıda ABŞ səfirliyi yerləşirdi. Sovet səfirliyi isə şəhərin şimalında, vaxtilə vəhşi ördəklərin üzdüyü gölün yerində tikilmişdir.

Mexiko. Paseo- de- la- Reforma prospekti

Meksika – SSRİ dostluq cəmiyyətinin sədri, professor xanımla çox səmimi görüşümüz oldu və telejurnalistlər görüşü lentə aldılar. Mən dəvətə görə razılığımızı bildirməklə yanaşı, bu körpünü yaradanları xatırlamaqla, həmin ilk pontifiklərin işini davam etdirməyi özümüzə şərəf bildiyimizi də qeyd etdim. «Pontifik» latınca "kahin", «pont» isə – «körpü» deməkdr və «ponticus» sözü isə «körpücük» mənasını verir.

Axşam SSRİ-nin Meksikadakı səfiri Oleq Tixonoviç Darusenkovla görüşdük. Mehriban insan olan bu adam xırda heyyətdə bizə ziyafət verdi. Katoliklərdə olduğu kimi, özü stolun başında, arvadı isə ayağında oturmuşdu. Zifayətə vaxtilə Meksikanın SSRİ-də səfiri işləmiş yaşlı diplomat da dəvət edilmişdi. O, xeyli müddət keçsə də, yenə də vaxtilə işlədiyi ölkəyə böyük məhəbbət hissləri bəsləyir və maraqlı xatirələr danışırdı. Söhbət vaxtı o, məndən II Dünya müharibəsi illərində SSRİ-nin Meksikadakı səfiri işləmiş Umanskinin qohumu olub-olmadığımı soruşdu. Mən «yox» cavabı verdikdən sonra, Konstantin

Aleksandroviç Umanski haqqında bəzi məlumatları bildiyimi də söylədim. O, ABŞ-da səfir işlədikdən sonra xarici işlər Xalq Komissarlığında rəhbər işə getmiş, sonra Meksikada diplomatik korpusun rəhbəri olmuşdu. 1943-cü ildə onun ailəsinə faciə üz vermişdi. 15 yaşlı qızı Nina aviasiya naziri A.İ.Şakurinin oğlu olan sevgilisi Vladimir tərəfindən güllə atəşi ilə öldürmüş, sonra oğlan özünü də intihar etmişdi. Tapançanı ona Serqo Mukoyan vermişdi və həmin silah isə onun atası, MK Siyasi Bürosunun üzvü A.İ.Mikoyana məxsus idi. Bu qətl hadisəsinin törədilməsinə silahla kömək edən Serqo və onun qardaşı Özbəkistana sürgün edilmişdilər. 1945-ci ildə isə K.A.Umanski arvadı ilə birlikdə Meksikadan, orada da həmçinin SSRİ-nin səfiri kimi işlədiyi Puerto-Rikoya uçarkən təyyarə qəzasında həlak olmuşdu.

Meksikalı diplomat köhnə sovet səfiri ilə yaxın dostluğundan söhbət açdı, onunla indiki sovet səfirliyi binasının yerindəki göldə vəhşi ördək ovladıqlarını yada saldı. Həm də bildirdi ki, ona çox oxşadığınızdan, onunla hansısa bir qohumluğunuzun olması barədə maraqlandım. Mən isə özümün azərbaycanlı, Umanskini isə rus olduğunu deyib, heç bir yaxınlığımızın olmadığını bildirdim. Sonra o, Moskva xatirələrindən söhbət açdı və indiyədək ən xoş illər kimi, o dövrü unutmadığını söylədi.

Səfir Darusenkov və onun xanımı səmimilikləri ilə fərqlənirdilər, bizə xüsusi diqqət verirdilər. Səhərisi gün isə bizim Mexiko ilə tanışlığımız başlandı. Mexiko olduqca böyük və sıx əhalisi olan şəhərdir. Ümumiyyətlə, Meksika, şəhər həyatına dair köhnə ənənələri olan bir ölkədir. Ölkə əhalisinin, demək olar ki, ¾-ü şəhərlərdə yaşayır. Latın Amerikasının digər ölkələri olan Uruqvayda və Argentinada isə əhalinin böyük hissəsi ancaq bir şəhərdə – paytaxtlarda yaşayır. Meksikada iri mərkəzlər daha sürətlə böyüyür. Üç böyük şəhər arasında Mexiko xüsusilə seçilir. O, Meksika yaylasının cənub hissəsində yerləşir, dağların əhatəsindəki vadidədir. Bu dağların ən uca zirvəsi isə Orisaba vulkanıdır.

İndiki Mexikonun yerində Atstek imperiyasının paytaxtı Tenoçtitlan yerləşirdi. Bu şəhər 1325-ci ildə mühüm ticarət yollarının üstündə bir qala kimi salınmışdı. Tenoçtitlan geniş gölün mərkəzindəki oval şəklində olan adada tikilmişdi. Ada ətrafdakı quru yer ilə üç bənd vasitəsilə birləşirdi. Atsteklər bəndlər qurmaqla, öz ölkələrinin ərazisini xeyli, 1/3-i qədər böyüdən və ona görə bir sıra şəhərlərinin adında «dam» – «bənd» sözünün işləndiyi hollandlardan hələ iki əsr əvvəl bu mühüm hidrologiya qurğusunu yaratmağa başlamışdılar. Göldən ayrılan kanalların üstündən isə qaldırılan körpülər keçirdi. Bundan başqa, gölün üstündə terrakota boruları olan böyük akveduk tikilmişdi. Gölün suyu duzlu olduğuna görə qonşuluqdakı dağlardan həmin akvedukla şəhərə təmiz içməli su gəlirdi. Tenoçtitlanın təqribən 300 min nəfər əhalisi olmaqla, o vaxtlar dünyanın ən böyük şəhərlərindən biri idi, yalnız Çində daha iri şəhərlər var idi, Avropa şəhərləri isə onunla müqayisə oluna bilməzdi, o vaxtlar Londonun 200 min və ya 1,5 dəfə az əhalisi var idi. Gölün sahilləri boyunca isə digər kiçik şəhərlər yerləşirdi

İspan konkistadorları ilk dəfə 1519-cü ildə Ernan Kortesin başçılığı alltında şəhərə girib, onu dağıtmaqla yerlə yeksan etdilər. 1551-ci ildə isə on minlərlə hindunun qul əməyindən istifadə edərək, şəhərin xarabalıqları üzərində Mexikonu saldılar. Zaman keçdikcə onu mühasirəyə alan göl və kanallar quruduldu, onların yerində yollar çəkildi, evlər tikildi. İndi təsəvvür etmək də çətindir ki, nə vaxtsa həmin adada atsteklərin paytaxtı mövcud imiş.

Mexikonun görməli yerləri

Müasir Mexiko o qədər böyükdür ki, Federal mahalın bütün ərazisini, həm də eyni adlı ştatın yaxınlıqdakı torpaqlarını tutmuşdur. Bu aqlomerasiya, adətən, Böyük Mexiko adlanır. Bu şəhər ölkə idxalının 3/5-ni udur və özü də də dəyər ölçüsündə Meksika ixracının 1/3-ni verir. Burada ölkənin bütün sənayesinin yarıdan çoxu yerləşmişdir, Meksika körfəzinin sahilindən gətirilən neft və qaz buradakı müvafiq zavodlarda emal olunur.

Mexiko köhnə ispan şəhərləri kimi düz küçələr qaydasında planlaşdırılmışdır və sonralar da bu ənənə pozulmamışdır. XIX əsrin ikinci yarısının ilk iki onilliyində Sena prefekti Jorj-Yevgeni Osmanın Parisdə gördüyü nəhəng yenidənqurma və abadlıq işlərinin bənzər konturlarını burada da görmək olar. Eyni qəbildən olan bəzi işləri 1960-cı illərin əvvəllərində olkədə Bakının məşhur meri kimi tanınan Əliş Ləmbəranski paytaxtımızda aparmışdı. Jorj Osmanı isə vaxtilə cərrah adlandırırdılar, o, şəhərin bədənində həqiqətən də əməliyyat aparıb, onu tamam dəyişdirmişdi. Şəhərə həm də kanalizasiya çəkdirmişdi, bu da vəba xəstəliyinin qarşısını almışdı. O, bu işləri əsasən 1855-1867-ci illərdə görmüşdü. Paris yeni arxitektura nümunələri hesabına dəbdəbə məkanına çevrilmişdi. Mexikoda da belə dəbdəbə elementləri az deyildir.

Paytaxtımız Bakıya cəldikdə, şəhər Qərblə Şərqin uğurlu sintezini qoruyub saxlamaqla, XXI əsrin ilk iki onilliyində iri miqyasda abadlaşmış və bütün ölçülərdə böyümüş, göydələnləri ilə əsl modern şəhərə çevrilməklə, ona gözəllik verən möhtəşəm binalar və digər arxitektura inciləri sərgisinə çevrilmişdir. Şəhərsalmanın dinamikası və nailiyyətləri ölkəmizin digər şəhərlərindən və rayon mərkəzlərindən də yan keçməmişdir. Keçmişinin qiymətli izlərini itirməməyə çalışan Bakı isə tikintidəki yeni meyllərə, novatorcasına aparılan dəyişikliklərə öz ağuşunu geniş açmışdır.

Meksika paytaxtı da sürətlə inkişaf edir, təsadüfi deyildir ki, dünyanın ən çox əhalisi olan bir şəhərinə çevrilmişdir. Mexikonun göydələnlərlə dolu olan uzun və geniş küçələri bu inkişafın bariz nümunəsidir. Şəhərin tarixi mərkəzi Sokalo (bu

söz “kürsü” mənasını verir) meydanıdır, indi bura Konstitutsiya meydanı adlanır. Burada atsteklərin Teokalyi məbədi (Böyük Məbəd) vardır, bu məbəddə allahlara insan qurbanları verilirdi. Atstek imperatoru Montesumanın saraylarından biri də burada idi. Meydanın digər hissəsində kafedral kilsənin binası ucalır. Prezidentin rəsmi iqamətgahı isə Palasio Nasyonal adlanır. Binanın daxili divarları məşhur rəssam Dieqo Rivera tərəfindən rəsmlərlə işlənmişdir. Bütün bunlar Sokalo meydanını Mexikonu müstəmləkə arxitekturasının özünəməxsus ansamblına çevirir.

Mexiko. Baş məbəd

Hər il bu meydanda ənənəvi bayram olan İstiqlaliyyət Günü keçirilir. Həmin gün – 15 sentyabr 1810-cu ildə keşiş Migel İdalqo kilsə zəngini çalmaqla Dolores şəhərciyinin sakinlərini ispan ağalığına qarşı üsyana çağırmşdı. Meksika müstəqillik qazandıqdan sonra zəng paytaxta gətirilmiş və Palasio Nasyonalın balkonundan asılmışdır. Hər il həmin gün, sentyabrın 15-də axşam saat 11-də respublika prezidenti balkona çıxıb zəngi çalır və məşhur «Qrito de Dolores» çağırışının «Meksikalılar, yaşasın Milli Müstəqillik! Yaşasın Meksika!» sözlərini təkrar edir.

Bu, həmin İdalqodur ki, atası onu cəza təhlükəsindən xilas etmək üçün mübarizədən çəkindirmək istədikdə, o, atasının məsləhətinə qulaq asmamışdı. Buna görə bu yaşlı adam onu məzəmmət edəndə, atasının sözündən çıxmağa haqqı olmadığını bildirəndə, Migel ona qısa, lakin tutarlı bir cavab vermişdi: «Patria est prima» – «Vətən öncədir». Biz Çapultensk parkındakı Tarix muzeyində olanda inqilabçı İdalqonun divara vurulmuş, iri hərflərlə yazılmış bu sözlərini plakatda oxuduq və belə qənaətə gəldik ki, yenilməz prinsipləri ifadə edən sözlər aforizmlərə çevrilərək. onların müəllifləri olan mübarizləri, vətənpərvərlik

simvollarını, elə bil ki, əbədi həyata qovuşdurur. Digər qəhrəmanlar kimi o da mübarizə yolunu axıra qədər getməyə nail ola bilmədi. 1811-ci ildə ispanlar onu əsir götürmüş və güllələmişdilər.

Mexiko. Çapultepek qəsri

Şəhərin böyük ərazisini tutan məşhur Çapultepek parkı öyünülən digər nümunələrlə yanaşı, meksikalıların yadelli işğalçılara qarşı barışmaz mübarizəsinin digər tarixi izlərini də qoruyub saxlayır. İndi Tarix muzeyinin yerləşdiyi bina köhnə saray olmaqla, bağın içərisindəki uca təpədə ispan vitse-kralının iqamətgahı imiş. «Çapultepek» sözü hinduların dilində «cırcırama qayası» deməkdir. Lakin burada vətənin müdafiəsi yolunda şəhid olmuş gənc meksikalılar öz qəhrəmanlıqları ilə onu bir növ «qartal qayasına» çevirmişlər. Qayanın zirvəsində köhnə qala qalmışdır. 1847-ci ildə burada Meksika vətənpərvərləri ilə ölkəyə müdaxilə etmiş amerikan qoşunları arasında döyüşlər getmişdir. Bağdakı təpənin aşağısında hərbi məktəbin kadetlərinə – şəhərin düşmənə tabe olmasına müqavimət göstərən bu axırıncı müdafiəçilərinə heykəl qoyulmuşdur. Onlar əsir düşməkdənsə, ölüm variantını seçmiş və özlərini qalanın divarlarından aşağı atmışdılar. 15–17 yaşlı gənclərdən ibarət xırda bir qrup şəhəri işğalçılardan qoruya bilməzdi. Lakin onlar öz həyatları hesabına millətin şərəfini və ləyaqətini xilas etdilər. Altı mərmərdən yonulmuş məşəl və əlləri üstündə oğlunu tutmuş Vətən–Ananın təsviri, bu obraz dahi Mikelancelonun «Pyeta»sını yada salır, Meksikanın milli faciəsi ilə yanaşı, ABŞ-ın bu ölkəyə olan təcavüzünü xatırladır. Məhz həmin dövrlərdə Birləşmiş Ştatlar Meksikanın nəhəng ərazilərini özünə anneksiya etmişdi. Altı kadet həlak olsa da, onların yandırdıqları məşəl sönməmiş, meksikalılar üçün şimal qonşusunun təhlükəsinə qarşı daim ayıq olmağ çağırışının simvoluna çevrilmişdir. Meksikalılar həm də kimlə qonşu olduqlarını heç vaxt yaddan çıxarmırlar. Onlar öz səmimiyyətlərinə uyğun olaraq deyirlər ki, bu da bizim taleyimizdir ki, Birləşmiş Ştatlarla çox yaxınıq, Allahdan isə çox uzağıq.

Mexiko. Həlak olmuş kadetlərin abidəsi

Şəhərin ən geniş və ən məşhur küçəsi Paseo-de-la-Reformadır, bu ad ona Meksikanın milli qəhrəmanı, 1861-72-ci illərdə ölkənin prezidenti olmuş Benito Xuares hökumətinin proqressiv reformalarının (islahatlarının) şərəfinə verilmişdir. Küçə Parisin Yelisey çöllərinə bənzəyir və on kilometrlərlə uzanır. Burada ölkənin başlıca abidəsi olan 45 metr hündürlüyündəki İstiqlaliyyət sütunu ucalır. Prospekt Çapultepek parkını kəsib keçir, parkın mərkəzindəki köhnə sarayda isə Tarix muzeyi yerləşir. Muzey Meksika xalqının milli-azadlıq uğrundakı mübarizəsini geniş əks etdirir.

Paseo-de-la-Reforma ilə İnsurxentes küçələri kəsişir. İnsurxentes küçəsindən sonra kübar sakinlərin yaşadığı, varlı villalarla və bağlarla, yaşıllıqlarla fərqlənən «Zona Rosa» – «Qızılgül zonası» yerləşir. Bu rayon sakitliyi və gözəlliyi ilə şəhərin digər hissələrindən fərqlənir.

Mexiko. Zona Rosa

Paseo-de-la-Reforma prospektindən şimalda isə dünyanın məşhur filosoflarının və yazıçılarının adını daşıyan küçələr yerləşir. Bu məkan dahilərin adını daşımaqla, bir daha onları minnətdarlıq hissləri ilə xatırlamağa məcbur edir. Dekart, Viktor Hüqo, Tolstoy küçələri ilə addımladıqca, bəşəriyyətin fəxr etdiyi şəxslərə ehtiram bəsləyən meksikalılara bir daha xoş münasibət izhar etmək istəyirsən.

Çapultepek parkı həm də ən böyük və ən məşhur muzeylər ərazisi olması ilə. müqayisə sığmayan bir məkandır. Digər böyük park olan Alemedanın yerində isə atsteklərin dövründə bazar olmuşdu. Sonralar, ispan inkviziyasının tüğyan etdiyi vaxtlarda burada yeretikləri (dinsizləri) camaatın gözü qarşısında yandırırdılar. Ona görə də meydan Plasa-del-Kamadero (Yandırılma meydanı) adlanırmış.

Mexiko. Çapultepek parkı

Çapultepek parkında yerləşən məşhur Meksika antropoloji muzeyinin özünə və eksponatlarına biz heyranlıqla tamaşa etdik. Muzeyin layihəsi 1964-cü ildə tutulmuşdur, bir etnoqrafik elmi institut kimi bu, bəlkə də, dünyada özünə bərabər olan ikinci bir nümunəni tanımır. Muzey hindu xalqlarının başına gələn faciələri hərtərəfli açıb göstərir. Dünyada ikinci piramidalar ölkəsi olan Meksika və öz heroqlif əlifbasını icad etmiş onun hindu xalqı böyük inkişaf yolu keçsə də, özünə qarşı olan amansız sınaqlardan çıxmağı, azad olmağı o vaxtlar bacarmamışdır.

Mexiko. Antropologiya muzeyi

Muzeyin yerləşdiyi məkan da yaxşı seçilmişdir, Paseo-de-la-Reforma ilə Mahatma Qandi küçəsinin arasındakı zonada, parkın içində yerləşmişdir. Burada Kolumbdan əvvəlki Meksika irsinin mühüm arxeoloji və antropoloji artefaktları nümayiş etdirilir, bunların arasında isə daha məşhur olanı Günəş Daşı (və ya hindu təqvimi daşı) və Atstek Ksoçipilli heykəlidir.

Muzeyin tikintisi, arxitekturası da çox uğurludur. Həyətində eksponat zalları, iri gölməçə və bir kvadrat şəkilli sütunun üstündə «çətir» adlanan talvar vardır. Muzey 23 eksponat otağından ibarət olmaqla, 8 hektar sahəni tutur.

Mexiko. Antropologiya muzeyi. Günəş daşı. (Hindu təqvimi)

Muzeyin kolleksiyasındakı Günəş Daşı hindu sivlizasiyasından yadigardır, daşın özü isə cəngəllikldən tapılmışdır. Eksponatlar Şimal, Qərb, Mayya, Meksika körfəzi, Oaksasa, Mexiko, Toltek və Teotiuakan dövrlərinə məxsus olmaqla sinifləşdirilimişdir. Birinci mərtəbədə Meksikanın ispan mustəmləkəçiliyindən əvvəlki yerli amerikanların mədəniyyəti nümayiş etdirilir.

Muzeyə gələn qonaqlar dünyanın digər böyük mədəniyyətlərinə də diqqət verirlər. Sonrakı eksponatlar qədim İran, Yunanıstan, Çin, Misir, Rusiya və İspaniyadan danışır. Ümumiyyətlə, eksponatlarının bolluğuna görə bu, dünya səviyyəsində olan bir muzey hesab olunur. Zallar İspaniyadan əvvəlki Meksikaya həsr olunmuşdur, ən uca səviyyədəki zalda isə Meksikanın qədim insanlarının törəmələrinin bugünkü həyatından bəhs edilir. Müasir mədəniyyətlər qədim sivilizasiyaların birbaşa üstündə yerləşir. Geniş muzey adamın ilk gəlişindən özünə götürdükləri, absorbsiya etmələri ilə müqayisədə də çox şey təklif edir.

Teotiuakan zalında amerikanların ilk və güclü dövlətlərini ifadə edən modellər və obyektlər nümayiş etdirilir. Sonra Tolteklər gəlir və orada Tula məbədi göstərilir.

Atsteklərin Meksikasına həsr olunmuş zalda məşhur Günəş Daşını görürsən, burada həmçinin atstek ilahilərinin panteonunda digər gözəl heykəllər göstərilir. Sonrakı zalda Oaksaka və Meksika körfəzi sivilizasiyalarının irsi nümayiş etdirilir. Olmek başının oyulduğu 20 tonluq iri daş da buradadır.

Həyətdəki nəhəng sütun fəvvarəsi «çətir» kimi tanınır və bu, təbiətlə əlaqəni xatırladır.

Muzeydə mühüm ikonalar hesab olunan mayya və atstek dövrlərinə xüsusi diqqət verilir. Hər iki xalq böyük və inkişaf etmiş sivilizasiyalar yaratmış, çox sayda hindu xalqlarını böyük imperiyada birləşdirmişdilər.

Antropologiya muzeyində Meksika pələngi heykəli

Mexiko təkcə arxitektura nümunələri və muzeyləri ilə məşhur deyildir, şəhərdən azacıq kənardakı meşədə təbiətin yaratdığı, möcüzəni andıran gözəl bir mənzərə ilə rastlaşırsan, cazibədarlığına görə o heş də insanın yaratdığı muzeylərdən geri qalmır. Meşədəki ağacların üstü ağlasığmayan sayda açıq qəhvəyi rəngdəki monarx kəpənəkləri ilə doludur, onların miqdarı bəlkə də göydəki ulduzların miriadlarından da çoxdur, yazda meyvə ağaclarındakı çiçək çətiri belə heç də bu cür nəhayətsiz qaydada gur olmur. Kəpənəklər üzüm salxımlarını andırırlar. Meksikada da gecə dağlardan əsən küləkdən qorunmaq üçün onlar bir-birinin üstünə qonub salxım əmələ gətirirlər. Gecə növündən fərqli olaraq onlar çox fəaldırlar, çəkisi 1 qramdan az olan bu həşəratlar incə qanadları hesabına uzun məsafələrə uçurlar. Onlar Kanadadan buraya uçub gəlmək, qış vətənini tapmaq üçün 3 min mil məsafəni qət edirlər, yeganə kəpənəklərdir ki, quşlar kimi ildə iki dəfə miqrasiya edirlər.

Cənuba səfər edən nəsli əvəz edən hər sonrakı nəsil şimala səfər etməli olur. Birinci nəsil Meksikada qışı keçirən monarxların törəməsidir. Şimala doğru miqrasiya ərzində dişi monarxlar sonrakı nəsil üçün yumurta qoyurlar. Bir illik siklə ümumən dörd nəsil cəlb olunur. Hər bir siklin bütöv həyatı isə 5-7 həftədən ibarət olur. Onlar şimala doğru uçarkən süd şirəli ağaclarda oturub dincəlir və qidalanırlar. Kəpənəklər valideynlərinin ötən il yaşadıqları elə həmin ağacda özlərinə məskən tapırlar. Vaxtilə nənə kəpənəyin rahatlandığı ağacda indi onun nəvəsi istirahət edir. Monarx kəpənəkləri təbiətin möcüzəsi adlandırmaq olar, onlar ağaclara, meşəyə xüsusi cözəllik verirlər, həm də tozlanmaya böyük köməklik göstərirlər. Havada isə onlar, elə bil ki, şamanların ekstazındakı hərəkətlərini andıran bir ritual rəqsi edirlər.

Köçəri quşlar və digər həşəratlar da uzun səfərlər vaxtı böyük əziyyətlərə qarşılaşırlar. Hind qazları Rusiyanın Uzaq Şimalından yayın sonunda Hindistana qayıdanda Himalay dağlarının üstündən keçirlər, bu vaxt 4 min metr hündürlükdə uçmaqla, çox seyrək hava ucbatından böyük əzablara düçar olurlar. Bir andaca yaşıllığı bütünlüklə məhv etdiyinə görə ərəblərin “boz şeytan” adlandırdıqları çəyirtkələr Afrikanın şimalından Fransanın cənubuna yollanankən uzaq məsafədən ibarət olan Aralıq dənizinin üstündən keçəndə yorulub, su dalğaları üzərində dincəlməli olurlar, bu vaxt irəlidə uçan dəstə suyun səthinə oturur, arxadakı dəstə təyyarə meydanındakı uçuş zolağı kimi onların üstünə düşür və həm də ac olduqlarından kannibalizm qaydasında öz növ qardaşlarını yeməklə aclıqlarına son qoymaqla yanaşı, uzaq səfəri davam etdirmək üçün dincəlmək imkanı da qazanırlar.. Böyk dəstənin əsas hissəsinin salamat qalması üçün nisbətən kiçik qrup könüllü surətdə özünü qurban verir. Kəpənəklər isə yırtıcı olmayıb, vegeteriandırlar, ancaq onlar daha zərif bədənə malik olsalar da, xeli böyük məsafəni uçub qət etməli olurlar.

Şərq şairləri uzun əsrlər boyu pərvanəyə, bu gecə kəpənəyinə sayı hesaba gəlməyən misralar qoşmuşlar, onun özünü oda atmasını qeyri-adi fədakarlıq nümunəsi kimi qələmə vermişlər. İngilislər bu kəpənəyi "moth" adlandırırlar, onların sürfələri olan və şkafda saxlanılan paltarları yeyib dağıdan güvə də belə adlanır. Əgər həmin şairlər Mexiko yaxınlığındakı meşədə nəql etdiymiz canlı gözəlliyi görsəydilər, yəqin ki, ilhamlarını adi bir cazibə səhnəsi də yaratmağa qadir olmayan pərvanənin deyil, həqiqi fədəkarlıq nümunəsi olan həmin kəpənəklərin vəsfinə həsr edərdilər. Lakin şairlərə də öz ilham pərilərinə görə sərt münasibət bəslənilməsi düzgün deyildir, onlar cox vaxt reallığa məhəl qoymur, virtual aləmin araşdırılmasına, dərk edilməsinə meyl edirlər. Axı şair psixikanın xüsusi mövcudluğudur, o, dünyanı fərqli qaydada hiss edir, ətrafa, yaşadığı mühitə məhz öz baxışı ilə baxır. Şairlər daim poetik metaforalara üstünlük verirlər, buna görə də onlardan hansısa bir matematik dəqiqliyi tələb etmək lüzumu da yoxdur. O, fakt arxasınca qaçmır, obraza, duyğuya, şifahi söz konstruksiyalarına önəm verir. Şeirlərdəki obrazı biz poetik metafora kimi qəbul etsək, şairi anlamamağımızın özü də yoxa çıxardı. Bu yaradıcı insan təsvirin həqiqətə güzgü əksi kimi uyğun olmasından daha çox, sözdə, sətirdə saitlərin və samitlərin bir-birini əvəz etməsinə, onların ritm yaratmaq xüsusiyyətinə, gücünə daha çox fikir verir. Gənc şair dostumun dünyabaxışına, özünəməxsusluğu ilə seçilən və ümumbəşəri dəyərlərə həsr edilən yaradıcılığına uzun illər ərzində nəzər yetirdikcə, mən yuxarıda ifadə etdiyim qnoseoloji, konqitiv qənaətə gəlməli oldum.

Meksikada müşahidə etdiyim kəpənək dünyası bir qədər mətləbdən uzaqlaşmağa şərait yaratdısa, bu da, həmin zərif canlıların yaratdığı möcüzəli təəssüratın hesabına yazılmaqla izah edilə bilər və seyr etdiyin səhnəyə vurğunluq, yazının çərçivəsindən kənara çıxmağı heç də məzəmmətə layiq qəbahətlər siyahısına daxil etməyə imkan vermir, bəlkə də bu sərbəstliyə müəyyən qədər haqq qazandırmış olur.

Mayyalar və atsteklər

Kolumba qədərki dövrdə Meksika hinduları iki qüdrətli dövləti – Mayya və Atstek dövlətlərini yaratmışlar və onlar bu xalqın, ölkənin tarixində xüsusi yer tuturlar.

Mayyalar bizim eranın 250–900-cü illərində Orta Amerika klassik dövrünün yaxşı tanınan bir sivilizasiyası olmuşdu. İndiki Cənubi Meksikada, Qvatemala, Şimali Beliz və Qərbi Hondurasda mayya görkəmli mövqeyə çıxmışdı. Əvvəlki sivilizasiyaların ixtiralarını və ideyalarını vərəsə kimi götürən Olmek və Tenoçtitlan, astronomiya təqvim sistemini, heroqlif yazısını və mərasim arxitekturasını, buna piramida məbədləri də daxil idi, xeyli iknişaf etdirdi. Tropik yağışların meşə zonası kənd təsərrüfatı üçün təmizlənirdi və yağış suyu çox sayda

rezervuarlara yığılıb saxlanırdı. Onlar həmçinin digərləri ilə, uzaq məsafədəki xalqlarla ticarət aparır, yolları cəngəlliklərdən və bataqlıqlardan təmizləyirdilər. Adamların əksəriyyəti fermer idi, bu vaxt mərkəzlər geniş mənada mərasim təyinatlı olmaqla yanaşı, həmçinin siyasi əhəmiyyət daşıyırdı, keşişlər elitası və kübarlar kənd üzərində ağalıq edirdilər. Mayya sivilizasiyası 900-cü ildən tənəzzül etməyə başladı, bunun səbəbləri dəqiq məlum olmasa da, bir sıra alimlər bunu bir neçə il davam edən sərt quraqlıqla izah edirlər. Mayyalar yağışın yağması üçün allahlara hətta insan qurbanları da verirdilər. Allahları rəhmə gətirmək üçün onlar digər pəstəhalara da əl atırdılar. Kişi cinsindən olanlar özlərini ayaqlarından asıb, xeyli bu vəziyyətdə qalırdılar ki, ilahi qüvvənin xalqa yazığı gəlsin, yağış yağdırsın. İndi isə Çapultepek parkında turistlərdən pul yığmaq üçün dörd kişi çox hündür dirəyin başından özlərini kəndirlə ayaqlarından asıb, dirəyin dövrəsinə fırlanırlar. Əcdadların yağış yağması naminə bu qaydada allahlara yalvarışı, indi pul qazanmaq üçün turistlərə birbaşa müraciət formasına keçmişdir.

Meksikanın milli siyasətinin təsiri altında uzaq Mayya mərkəzləri isə indiyədək inkişaf edirlər.

Teotiuakan piramidaları

Atsteklər XV–XVI əsrlərdə ən güclü xalq olmuşdu. Bu xalqın yaratdığı dövlət bir əsrdən az ömür sürmüşdü, onun qısa müddətli mövcudluğu SSRİ-nin uğursuz tarixini yada salır. Onların baş şəhəri Tenoçtitlan regionun ən sıx əhalisi olan şəhəri idi. Onlar böyük və güclü despotik dövlət qurmuşdular, möhkəm hərbi gücə malik idilər. Mərkəzi Meksikanın, demək olar ki, bütün əhalisini özlərinə tabe etmişdilər, əslində, onlara təzminat verən 400–500 kiçik dövləti idarə edirdilər. Müharibələrdə əsir götürülən adamlar Atstek allahlarına qurban verilirdi. Atsteklər özlərinin kənd təsərrüfatı ilə məşhur idilər, yararlı torpaqların hamısını becərirdilər, irriqasiya tətbiq edirdilər, bataqlıqları qurudur və göllərdə süni adalar yaradırdılar. Onların daha yaxşı çalışan hökmdarı II Montesuma idi. Onlar heroqlif yazısından istifadə edirdilər, mürəkkəb təqvim sisteminə malik idilər, məşhur piramidalar və

məbədlər tikmişdilər. Atstek imperiyası, nəhayət, 1521-ci ildə Kortesin başçılığı altında olan ispan konkistadorları tərəfindən məhv edildi.

Meksika ərazisində mövcud olmuş iki güclü dövlət böyük inkişaf səviyyələrinə çatmalarına baxmayaraq, biri təbiətin amansızlığının, digəri isə avropalıların qaniçənliyinin qurbanı olmaqla, tarixdən silinmək kimi Troya və Karfagenin acı taleyini təkrarən yaşamalı olmuşdular.

Mexikoda mədəniyyət və əyləncə

Mexikoda «mariaçi» adlanan musiqiçilərə tez-tez rast gəlmək olur. Onlar 3-12 nəfərdən ibarət olan bir qrup şəklində xırda məbləğə, bir neçə pesetə küçələrdə çıxış edirlər. Burada öküz döyüşü də çox populyardır. Öküzlər üçün şəhərdə olan arena – «Plasa de-Torros» dünyada ən böyük olmaqla, 60 min tamaşaçı tutur.

Mexikonun cənub kənarında olan «Soçimilko» kanalları özlərinin üzən «çinampas» bağları ilə məşhurdur. Suda çiçək və tərəvəz yetişdirilməsi sənətini meksikalılar öz əcdadları olan atsteklərdən əxz etmişdilər.

Mexiko. Soçimilko parkı

Soçimilko şəhər sakinlərinin və qonaqlarının sevimli istirahət yeridir. Bu kanallarda ancaq qız adları daşıyan iri qayıqlar üzürlər. Onların bəzilərində xörək bişirib hazırlayan aşpazlar çalışır və onlar yaxınlaşdıqları qayıqlardakı istirahət

edənlərə pulunu almaqla, çox növdə xörək verirlər. Biz belə qayıqların birində kanalda gəzdik və bu ekzotik əyləncədən həzz aldıq. «Mariaçilərin» olduğu qayıqlar da gəzintiyə çıxmış adamların qayıqlarına yan alıb, təklif edildikdə həmin qayıqlara keçir və müəyyən haqq müqabilində onları milli musiqi nümunələrinin sədalarına qonaq edirlər.

Soçimilko atsteklərin bitkiçilikdə əldə etdiyi böyük nailiyyətlərdən biri olmaqla, bu gün onların törəmələrinin yaratdığı əyləncə parkı kimi xidmət göstərir.

Hinduların əkinçilik məhsulları

Hinduların, bəşəriyyəti özlərinin bitkiçilik növündən olan ərzaq məhsullarında ibarət qiymətli töhfələri ilə təchiz etməsi isə ölçüyə sığmazdır və bu gün də istehlak etdiyimiz qarğıdalıya, paxlalı bitkilərə, kartofa, pomidora, bibərə, boranıya və digər çox sayda tərəvəz bitkilərinə görə biz hindulara, o cümlədən mayyalara borcluyuq.

Kolumba qədərki dövrdə Karib dənizi hövzəsində, o cümlədən Meksikada qarğıdalı, kartof, pomidor, paxlalılar, bibər, balqabaq və digər bitkilər becərilir və onların məhsulları istehsal edilirdi. Hindular təkcə bitkiçiliklə sadəcə məşğul olmurdular, həm də ayrı-ayrı növlər üzərində seleksiya aparırdılar ki, bunu da əsl elmi kəşf adlandırmaq olar. Qarğıdalının yabanı ot növündən bol qida mənbəyinə çevrilməsi sahəsində hinduların apardığı iş həqiqətən də təqdirəlayiqdir.

Qarğıdalı (mais) indi hündür boylu bitki olsa da, başlanğıcda tropik ot bitkisi olmaqla, barmaq boyda idi və üzərində 10–12 dəni olan dişiciyə- qıçaya malik idi. Hələ 10 min il bundan əvvəl hindular bu bitkini öyrənməyə başladılar, dəninin yumşaq və bərk olduğunu da gördülər. Çox uğurlu təcrübə, həqiqi seleksiya işi apararaq, özlərinin kəşfi hesabına indi boyu 3 metrə çatan, qıçasında 80–100 dəni olan mədəni qarğıdalı yetişdirməyə başladılar. Qıçanın uzunluğu indi 50 sm-ə, çəkisi isə 0,5 kq-a çatır. Əslində qarğıdalını qədim meksikalıların-hinduların icadı saymaq olar.

Mərkəzi Amerikanın hindularının istedadı və zəhməti hesabına yabanı, az məhsuldar bitki, yüksək məhsuldarlığa malik olan mədəni bitkiyə və əsas qida taxılına çevrildi. Yəqin, buna görədir ki, onu həm də hindu qarğıdalısı adlandırırlar. Bitkinin indiki sortları mülayim regionlar üçün yararlıdır və uğurla becərilir, həm də quraqlığa nisbətən davamlılığı ilə seçilir. Dəni bir sıra xalqlar üçün əsas qida mənbəyi olmaqla yanaşı, həm də gövdəsi ilə birlikdə mal-qara yemi kimi də istifadə olunur. Ondan un, kraxmal, patka, spirt və kağız hazırlanır. ABŞ-

da və Çində, əsasən, mal-qara yemi kimi istifadə olunur, mal-qaranın əti və südü isə insanlar tərəfindən qida kimi istehlak olunur.

Hindular qarğıdalını əsas qida məhsulu, ən vacib ərzaq hesab edirdilər və meksikalılar bu gün də həmin ənənəni davam etdirirlər. Qarğıdalı dəni müxtəlif şəkillərdə istehlak olunur. Hətta xüsusi xörək növü kimi kiflənmiş qarğıdalıdan istifadə edirlər, qara rəngli bu sıyıq yaxşı dadı ilə seçilməsə də, meksikalılar onu ləzzətlə yeyirlər, bu vaxt dəndə əmələ gələn köbələyin səhhətə hansısa bir ziyan vuracağından da qorxmurlar. Bu bitkiyə onlar mistik bir münasbət bəsləyirlər. Təsadüfi deyildir ki, münbitlik allahı Tlalok hindularda qarğıdalı allahı hesab olunurdu. İndi bu bitkinin məhsuldarlığı da xeyli artmışdır, hər hektardan qarğıdalı dəninin orta məhsuldarlığı 50 sentnerə çatır, ABŞ-da isə bu göstərici, az qala, 100 sentnerə bərabərdir.

Qarğıdalı təkcə onu icad edənlərin, mədəniləşdirənlərin və çox məhsuldar bitkiyə çevirənlərin vətnində becərilmirdi, hətta sonralar Şimali Amerikanın şərq hissəsinə, Massaçusets körfəzinin sahil boyuna da yayılmışdı. Kilsə təqiblərindən canını qurtarmaq üçün çalışan bir qrup ingilis 11 noyabr 1620-ci ildə "Meyflauer" gəmisində buraya gəlib çıxmış və özlərinin "Yeni Plimut" koloniyasını yaratmışdılar. Onlar hinduların komalarında heç vaxt görmədikləri qarğıdalını və paxlalı bitkilərin dənlərini gördülər, qarğıdalı dəni həm də çox rəngdə idi. Hindular onlara yazda qarğıdalını səpməyi və becərmə qaydalarını öyrətdilər. Yeni kolonistləri sonralar başa saldılar ki, əvvəllər bitki becərilmiş torpağın münbitliyini bərpa etmək üçün hökmən şuma çaydan tutduqları balığın bir hissəsini qatmalıdırlar. Bu tətbiq edilməsə sahədə cücərti çox seyrək olacaqdır. Həmin Sahemi hinduları gübrə barədə anlayışları olmadığı halda torpağı münbitləşdirmək yolunu və qaydalarını bilirdilər. Bunları 17 il ərzində koloniyanın qubernatoru işləmiş Uilyam Bredford özünün "Plimut Plantasiasının tarixi" adlı çox maraqlı kitabında nəql edir.

Kolumbun Yeni Dünyanı kəşf etməsindən sonra avropalılar özlərinə tanış olmayan bitkiləri gətirib becərməyə başladılar, İspaniyadan onlar bütün Avroasiyaya yayıldı. XVI əsrdə buğda Avropada çox az məhsul verirdi, qarğıdalının məhsuldarlığı isə ən azı 5 - 6 dəfə yuxarı idi. Bu, ərzaq probleminin həllinə xeyli köməklik göstərdi. Yeni Dünya, Köhnə Dünya üçün yeni ərzaq xəzinəsini kəşf etmək təsiri bağışladı. Bu cəhəti nəzərə aldıqda, Kolumbun kəşfi təkcə coğrafi deyil, daha geniş mənada həm də bioloji kəşf sayıla bilərdi.

Xristian dini, cəhalətin təsiri ilə Yeni Dünyadan gətirilən çox növdəki qida maddələrindən istifadə olunmasını məhkum edirdi, yalnız ona görə ki, həmin bitkilərin adı Bibliyada çəkilməmişdir. Əgər Xristian dininin mənfi münasibəti qəbul edilsəydi, Köhnə Dünyanın əhalisi çox sayda qida maddələrindən məhrum olardı və onsuz da, mövcud olan ərzaq qıtlığı şəraitində aclıqla üzləşərdi. Bəzi ölkələrdə isə kartofun ərzaq kimi tətbiq edilməsi və istehsalı naminə hər cür hiyləgərliyə əl atılırdı. Prussiya kralı II Fridrix (Böyük Fridrix) XVIII əsrin

ortalarında özünün Portsdamdakı San-Susi sarayının həyətində kartof əkdirmişdi və gündüzlər tarlanı qorumaq üçün gözətçilər təyin etmişdi, gecə düşəndə isə gözətçilər yoxa çıxırdı. Yaxında yaşayan adamlar gecə tarlaya girib kartof kollarını çıxarıb aparır, öz həyətlərində əkirdilər. Onlar düşünürdülər ki, əgər kral kartof sahəsini qoruyursa, deməli, o, çox faydalı bitkidir. Bəşəriyyət, həmişə olduğu kimi, xoşbəxtlikdən cəhalətin arxasınca getmədi, proqressə və nisbətən ərzaq bolluğuna aparan yolu tutdu.

Tula şəhəri yaxınlığındakı döyüşçü-atlantların heykəllərinə baxarkən mən ətrafdakı sahələrə də diqqət yetirdim. Bu ərazi çınqılla, qumla örtülü torpaq idi. Belə torpaqda əkinçiliklə məşğul olmaq əsl fədakarlıq, bəlkə də, qəhrəmanlıq tələb edir. Hələ bizim eranın I minilliyinddə bu xalq burada əkinçilik məhsulları istehsal edirmiş və sərt quraqlıq illəri istisna olmaqla, əhali ərzaq qıtlığından heç də əziyyət çəkmirmiş. Onlar yağış suyunu anbarlara yığıb saxlamaq sahəsində də böyük mühəndislik qabiliyyətinə sahib idilər. Onlar suvarma əkinçiliyini yüksək səviyyəyə çatdırmışdılar. Hindular irriqasiya şəbəkəsi yaratmaqda da çox şeyə nail olmuşdular. Suvarılmayan təpələrdə, dağ yamaclarında mais (qarğıdalı) becərilməsi təcrübəsi də diqqətəlayiqdir. Meksikalılar indi də həmin ərazilərdə qazan dirəklərdən istifadə edirlər. Metal uclu dirəklə yeri oyur, ora iki dənə qarğıdalı toxumu qoyub, sonra torpağı tapdalayırlar. Bir azdan toxumlar cücərir. Oradakı qarğıdalı plantasiyalarının sıx bitki ilə örtülmüş düz cərgələri və sahənin alaqsız olması adamı heyran qoyur. Əkinçilər həm də dağ yamaclarının şumlanmasına, bu səbəbdən torpağın yuyulmasına, eroziya olunmasına imkan vermirlər və sonrakı nəsillər qarşısında da öz vəzifələrini ləyaqətlə yerinə yetirirlər. Şumlanmış torpaqların münbit qatı sərt maillilikdə güclü yağış hesabına yuyulub məhv olardı, münbit torpaq sahəsi sadəcə suxur məkanına çevrilərdi. Onu da qeyd etmək lazımdır ki, təkcə hindular deyil, Asiyadada əhali bu əkinçilik texnologiyasından istifadə edirdi. Qədim dövrlərdə Yaponiyanın şimalında, Xokkaydo adasında yaşayan aborigen əhaliyə – aynlara qazan dirəklərdən istifadə tanış idi.

Belə bir mülahizə vardır ki, sərt quraqlıq, uzun müddət yağış yağmaması inkişaf etmiş mayya sivilizasiyasını məhv etmişdi. Təbiət insanları sınağa çəkir, yeri gəldikcə ona tabe olmadığını xatırladır. İnsanların təsərrüfat səhvləri də bağışlanmır. Bunu qədim Assuriyanın timsalında görmək mümkündür. Mesopotamiyada b.e ə. XIV əsrdən başlayaraq qonşu dövlətləri işğal etməklə qüdətli imperiya yaratmışdı. Suvarmanın bol qaydada aparılması Cənubun qızmar günəşi altında intensiv buxarlanma hesabına əkin torpaqlarının güclü şoranlaşması baş verdi və məhsul istehsalı kəskin surətdə azaldı. İqtsadi cəhətdən zəifləmə hərbi qüdrətin də yoxa çıxmasına səbəb oldu və Assuriya b.e.ə. VII əsrin sonunda iki daha güclü dövlət tərəfindən məğlub edilməklə tarix səhnəsini tərk etdi. Qədim meksikalılar öz güclü dövlətini itirsələr də, ağlı, zəhməti, fərasəti hesabına əldə etdikləri əkinçilik nailiyyətlərini, bol ərzaq istehsalı təcrübəsini sonrakı nəsillərə,

əslində, bütün bəşəriyyətə ötürməklə, bu nəcib işinə görə ən yüksək minnətdarlığa layiqdir.

Mexikodan təqribən 40 km aralıda Teotiuakan şəhərinin qalıqları qalmaqdadır. Şəhər tolteklərin başçılığı altında IX–X əsrlərdə birləşmiş hindu tayfalarının paytaxtı olmuşdu. Burada Günəş və Ay piramidaları tikilmişdir, biz onlara böyük maraqla tamaşa etdik. Lakin ən iri və möhtəşəm piramidalar Yukatan yarımadasındadır. Noyabr ayının əvvəllərində qızmar isti adamı yandırdığından, piramidalar yaxınlığındakı iri kaktus ağacının kölgəsinə sığınmaq istədik, lakin yaşıl budaqlarda bol həşəratı gördükdən sonra həmin fikrimizdən vaz keçdik.

Mexikonun arxitektura xüsusiyyətləri və şəhər problemləri

Mexiko ölkənin başlıca siyasi və mədəni mərkəzidir. Bu qərb yarımkürəsində ən qədim şəhər olmaqla, 1551-ci ildə onun əsası qoyulmuşdur. Məşhur Meksika milli muxtar universiteti paytaxtın ətrafında yerləşir. Biz universitet kampusunda – şəhərciyində olduq, hündür binaları, çəmənlikləri və yaşıllığı olan geniş ərazidə tələbələrin biliklərə yiyələnməsi, istirahəti üçün hər cür şərait yaradılmışdır. Universitetin müstəqil polisi, digər hüquq mühafizə orqanları vardır, bu məsələdə yəqin ki, Oksford və Kembric universitetlərinin təcrübəsindən istifadə edilmişdir. Əslində, bu kompleks böyük şəhəri xatırladır, düz küçələri, gözəl tikililəri vardır. Kitabxananın çoxmərtəbəli binasının pəncərəsi yoxdur, böyük nəhəng ev mozaika ilə bəzədilmişdir, elə bil ki, Şərq xalçalarına bürünmüşdür.

Mexiko. Üç mədəniyyət meydanı

Mexiko Muxtar Universitetində 60 mindən artıq tələbə oxuyur. Şərqdə, Hindistanda bizim eradan əvvəl III əsrdə ilk universitet yaratmış çar Aşoka bu universitet kompleksini görsəydi, yəqin ki, öz nəcib işinin varislərinə minnətdarlıq hissi izhar edərdi.

Onu da qeyd etmək lazımdır ki, Meksika XIX əsrin əvvəllərində müstəqillik qazandıqdan sonra şəhər arxitekturasının inkişafında öz yolunu tapmaq istəmiş, müstəmləkəçilik boyunduruğu altındakı keçmişini xatırladan nümunələrdən bir daha istifadə etmək istəməmişdir. Bu sahədə ən böyük nailiyyət də Meksika Milli Muxtar Universiteti binalarının kompleksində öz əksini tapır. Paytaxt yaxınlığında onun tikintisi 1955-ci ildə başa çatmışdı. Onun yaradıcıları arasında dünya şöhrətinə yiyələnmiş sənətkarlar – Dieqo Rivera, David Alfaros Sikeyros, Xuan O`Qorman var idi. Bu unikal kompleksin layihəsinin hazırlanmasına bütövlükdə 180 ən yaxşı arxitektor, rəssam və inşaatçı-mühəndis cəlb edilmişdi. Yuxarıdan baxdıqda universitet şəhərciyi mayya hindularının qədim şəhərlərini xatırladır. Kompleksin çox sayda binaları içərisində 16 mərtəbəli rektorat qülləsi və geniş şöhrət tapmış kitabxana binası xüsusilə seçilir.

Mərkəzdə isə, mayyalarda olduğu kimi, nadir ağacların bəzədiyi böyük açıq çəmənlik vardır. Bütün binalar keçidlərlə birləşmişdir. Monumental mozaik panno öz əcdadlarının mədəniyyətindən gələn vərəsəlik elementini gücləndirir. Tibb fakültəsi binasının fasadındakı panno daha çox məşhurdur. Kompozisiyanın mərkəzində üç sifətin bir yerdə əks olunduğu nəhəng baş təsvir olunur. Bu, müasir Meksika millətini təcəssüm etdirir, sol tərəfdə hindu qadınının profili, sağda – ispan kişisinin, ortada isə metisin üzü görünür. Onların başı üzərində iki ovucda doğulan ailə və onu mayalayan tozcuqlar təsvir olunur. Buna təəccüblənmək də

düzgün deyildir. Təkcə burada deyil, şəhərin çox yerində iri həcmli mural (divar) rəsmlərini, dahi Meksika rəssamlarının məşhur əsərlərini görmək mümkündür.

Uinversitet təkcə memarlıq xüsusiyyətləri ilə deyil, həm də ölkənin elmi və mədəni mərkəzi kimi Mexikonun nüfuzunu möhkəmləndirdi. Universitetin radio stansiyası da əhali arasında böyük maarifçilik işi aparır.

Mexiko muxtar universitetinin kitabxana binası

Mexiko həm də bəzi problemlərdən əziyyət çəkən şəhərdir. Son illərdə onun sürətlə böyüməsi və torpağın qiymətinin yüksəlməsi, digər sosial-iqtisadi amillərlə birlikdə şəhərdə sosial zonaların meydana gəlməsinə şərait yaratdı. Hər bir zonada yalnız təqribən eyni maddi imkanlara malik olan adamlar yaşayırlar. Kasıbların yaşadığı rayonlarda sakinlərin daimi yol yoldaşı isə tozdur. Avstraliyanın cənubi-çərqdəki qoyunıuluq zonasındakı üç bəla – qızmar isti, toz və milçək bu məkan üçün də yad deyildir.

Əhalinin Böyük Meksikada təmərküzləşməsi ətraf mühitin ciddi surətdə pisləşməsinə gətirib çıxarmışdır, bu vəziyyət şəhərin yerləşdiyi yerin fiziki-coğrafi xüsusiyyətləri hesabına da mürəkkəbləşmişdir. Axı paytaxt bataqlıq və göllərin olduğu yerdə tikilmişdir və qum qatının altındakı «su yastığı» indiyədək qalmaqdadır.

Əhalinin və sənaye müəssisələrinin sayının sürətlə artması sulardan istifadənin xeyli çoxalmasına gətirib çıxarmışdır, bu isə şəhərin səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Bu proses binaların və ağır tikintilərin çökməsi ilə nəticələnmişdir. Şəhərdəki Nəcib İncəsənət Sarayı da aşağı çökür. Saray Parisin Qrand Operasına bənzər qaydada tikilmişdir, lakin ona hindu arxitekturasının elementləri də əlavə edilmişdir. Onun açılışı 1934-cü ildə baş verəndə pilləkənlə

əgər yuxarı qalxılırdısa, indi həmin pilləkənlə aşağı düşülür. Konstitusiya meydanındakı atsteklər dövrünün arxitektura abidəsi də indi 11 metr dərinliyində olan metro şaxtasında yerləşir.

Şəhərə su çox uzaqdan nəql edildiyindən, onun gətirilməsi xərcləri də xeyli artır. Mexiko dünyanın böyük şəhərləri içərisində su ilə ən pis təmin olunan şəhərlərdən biridir. Dünya çempionu olan gənc idmançı dostumun daxil olduğu komanda turnirdə iştirak etmək üçün bizdən əvvəl Mexikoda olanda, şəhərin kənarındakı oteldə qalırmış və onlar məişət suyu barədə əziyyət çəkməli olublarmış. Biz isə mərkəzdəki oteldə yaşadığımızdan hansısa su qıtlığından heç də xəbərimiz olmadı.

Paytaxtın digər bir problemi havanın çirklənməsidir. Vaxtilə Mexikonun büllur kimi təmiz havası var imiş. İndi şəhərin üstündən smoq əksik olmur, buna görə də şəhər sakinləri arasında belə bir acı zarafat gəzir: «Biz gördüyümüz hava ilə nəfəs alırıq». Havanın çirklənməsi, BMT-nin məlumatına görə normal həddən xeyli yuxarıdır.

Mexikonun ən böyük problemi isə şəhərin vaxtaşırı zəlzələlərə məruz qalmasıdır. Dünyanın yer (quru hissəsində) səthində baş verən zəlzələlərin hər onuncusu Meksikanın payına düşür. 1985–cü ildə Mexikoda baş verən axırıncı zəlzələ şəhər təsərrüfatına ağır zərbə vurmuşdu. Onu xatırlatmaq üçün dağıntıya məruz qalmış bir göydələn binasının karkası saxlanmışdır. Bu sahədə Meksika Sakit okean sahillərində bol seysmik və vulkanik fəallığı ilə seçilən zona – Sakit okean Odlu Dairəsi ilə müqayisə oluna bilər, planetdə meydana gələn zəlzələlərin 90 faizi bu Odlu Dairədə baş verir.

Mexiko müxtəlif arxitektura üslubları ilə də fərqlənir, bu, onun keçmişini və indiki dövrünü səciyyələndirir. Sokalonun yanındakı «Üç mədəniyyət» meydanı ona görə belə adlanır ki, yerli hindu əhalisinin qədim mədəniyyət abidələrinin yanında müstəmləkə epoxasının ispan arxitekturası binası və çox müasir tikililər dayanır. Ötən əsrdə Mexikoda qazıntılar aparılanda iri arxeoloji tapıntılar aşkar olundu, güclü mədəni təbəqənin altında gizlənmiş piramidalar və hinduların digər abidələri tapıldı. Kolumba və müstəmləkə dövrünə qədər olan ənənələrlə müasirliyin çuğlaşması təkcə Meksikanın tarixi özünəməxsusluğunu deyil, həm də Meksika millətinin müasir etnik tərkibini və etnik tarixinin xüsusiyyətlərini əks etdirir. Hindu və ispan etnomədəniyyət elementlərinin bir-birinə qarışması Meksika xalqının əsas hissəsinin də fiziki tipini müəyyən edir. Ona görə də əhali içərisində kəmiyyət üstünlüyü hindu və ispan cütlüyündən törənən metislərə məxsusdur. Əhalinin əksəriyyətinin sitayiş etdiyi din isə katolik dinidir.

Hinduların tarixi taleyi

Meksika 2500 ildən çox bir müddətdə hindu sivilizasiyalarının məskəni olmuşdur. Yarımada sahili olmekləri La Ventada məskunlaşmışdılar. Tolteklər Tulada, mayyalar Yukatanda və Çimpasda, atsteklər Tenoçtitlanda yaşayırdılar. İndi də hər addımda hindu keçmişinin təsiri özünü göstərir. Bu, əhalinin müasir etnik tərkibində, onun əmək vərdişlərində, məişət ukladında, coğrafi adlarda meydana çıxır. Hətta ölkənin adı da atsteklərin ali allahının adı olan Meksitlidən götürülmüşdür. Ölkənin ictimai həyatının istənilən sahəsində özünəməxsus hindu elementinin görünməsi Meksika üçün xarakterikdir. Meksikalıların vətənpərvərliyi xeyli dərəcədə məhz bununla tərbiyə olunur. İspanlar buraya ilk dəfə 1516-cı ildə gəlmişdilər. Ernan Kortes isə 1519-cu ildə Verakrusda sahilə çıxdı, iki il ərzində Atstek paytaxtını dağıtdı. Yeni İspaniyada vitse-krallıq quruldu. İspanlar hinduları nə qədər qırsalar da, məhv edilənlər milyonlarla idi, bu xalqı bütünlüklə yer üzündən silə bilmədilər. Lakin hinduların taleyi avropalıların istilalarından sonra həqiqətən də çox acınacaqlı olmuşdu. Kortes Meksikada, Pisarro isə Peruda yerli monarxların sadəlövlüyündən xaincəsinə istifadə edib, öz işğal niyyətlərini həyata keçirdilər. Atstek kralı II Montesuma ağ insanların şəxsində öz allahları Kuetsalkuatlın, vəd edildiyi kimi geri qayıtdığını güman edib, Kortesi qonaqpərvərliklə qarşıladı. Əvəzində isə bu amansız insan Montesumanı öldürdü və şəhərin əhalisini qırdı. Pisarro isə onunla danışıq aparmaq üçün silahsız və mühafizəçisiz gələn İnka imperatoru Ataualpanı əsir götürüb, inklərdən girov pulu kimi bir otaq dolu qızıl və üç otaq tutumunda gümüş aldıqdan sonra, onu azad edəcəyi vədinin əksinə, onu öldürdü.

Avropalılar hinduları təkcə silahla qırmırdılar. Onların özlərinin və atlarının gətirdiyi xəstəliklər yerli əhalini kərənti kimi biçirdi. Peruda bəzi yaşayış məntəqələrində epidemiya nəticəsində əhalinin 80 faizi qırılmışdı. Şimali Amerikada isə yeni məskunlar hinduları məhv etmək üçün ən iyrənc vasitəyə əl atırdılar. XIX əsrdə Kanadadakı Britaniya Kolumbiyasının qubernatoru bir həkimə pul verib, çiçək xəstəliyinə sirayətləndirildikdən sonra onu hindu yaşayış məntələrinə göndərmişdi. Yayılan epidemiya Sakit okeanın şimal-qərb sahilində yaşayan hinduların kütləvi qırğınına səbəb olmuşdu.

Şimali Amerikanı məskunlaşdıran avropalılar həm də öz qarşılarına hindu mədəniyyətini məhv etmək vəzifəsini qoymuşdular, çünki bu onlara iqtisadi, sosial və siyasi ağalıq şəraiti yaradacaqdı. İspanlar da buna nail olmağa çalışsalar da, hindu mədəniyyətini bütünlüklə məhv edə bilməmişdilər. Problemi həll etmək üçün onlar daha çox soyqırıma üstünlük verirdilər. Avropalılar bu torpaqların həqiqi sahiblərini məhv etməyə çalışsalar da, bunu da tam qaydada həyata keçirə bilmədilər. Hindular qaldı, ən başlıcası, onlar xalqın ruhundan itmədilər. Müasir meksikalıların bəzilərinin bədən quruluşu da hindu mənşəindən xəbər verir, onların gövdəsi ayaqlarından uzundur. Elmi kommunizminn banisi Karl Marksın da bədən quruluşu belə idi, ancaq onun əcdadlarında hindu qarışığı olmamaışdı, onun valideynləri yəhudi idi

Latın Amerikasının iqtisadi cəhətdən daha çox inkişaf etmiş ölkələri arasında Meksika az sayda olan dövlətlərdən biridir ki, orada hindu elementi millətin formalaşmasında xüsusi və xeyli rol oynamışdır. Bu proses bir neçə əsr ərzində davam etmişdir. Əksər meksikalıların damarlarında, heç olmasa, az da olsa, hindu əcdadlarının qanı axır. Meksikalılar öz ölkələrinin hindu keçmişi, onun ənənələri, maddi mədəniyyət abidələri ilə fəxr edirlər. Xalq hinduların çox sayda adətlərini və əmək vərdişlərini qoruyub saxlayır. Coğrafi adların çoxu, o cümlədən ölkənin özünün və paytaxtının adı da hindu mənşəlidir.

İspan işğalına qədər, XVI əsrin başlanğıcında Mərkəzi Meksikanın dağlıq ərazilərində və ölkənin tropik meşələr zonasında bütün Amerika əhalisinin xeyli hissəsi yaşayırdı. Lakin Amerikanın başqa ölkələrində olduğu kimi, Meksikada da Avropa işğalları bütün hindu etnik qruplarının müstəqil inkişafını dayandırdı.

Metropoliyanın hindu əhalisinə qarşı siyasəti bir neçə mərhələdən keçdi. İşğalın birinci yüzilliyində milyonlarla hindu məhv edildi. Müxtəlif məlumatlara görə, həlak olanların sayı 20 milyon nəfərdən artığa çatırdı. Mərhum Əlcəzair prezidenti, fransız ağalığına qarşı görkəmli mübariz olan Ben Bellanın yazdığına görə, Afrikada isə avropalılar 100 milyon adamı qırmışdılar.

Lakin mahiyyətcə qul əməyi kimi mövcud olan işçi quvvəsindən məhrum olmamaq üçün İspaniya hökuməti hinduların məhv edilməsini qadağan edən bir neçə qanun qəbul etmişdi.

Hindular qalsa da, hindu dilində danışan adamların sayı ilbəil azalır. Bir millət kimi meksikalıların əsas hissəsini təşkil edən metislərin sayı isə ardıcıl olaraq artır. Meksikalı bir etnoqrafın dediyi kimi: «Hindular birdən-birə hindu olmalarını dayandıra bilməzlər, yalnız o səbəbə görə ki, onlar ispan təhsilinə yiyələnmişlər».

Meksikada indi hinduların sayı 3 milyonla 6 milyon arasındadır. Ölkənin mərkəzi hökumətində, paytaxta yaxın ərazidə atsteklər yaşayır, onlar nə vaxtsa qüdrətli olan bir xalqın törəmələridir. Onların sayı 1 milyona qədərdir.

Atsteklərin metisləşməsi xeyli uzağa getmişdir. İnfrastrukturanın genişlənməsi də hinduların assimilyasiyasına şərait yaradır.

Sayca ikinci daha böyük olan hindu xalqı mayyalardır, onların sayı 0,5 milyona qədərdir. «Meşə» mayyaları indi də ibtidai insan tayfaları kimi meyvə və kök yığmaqla məşğul olurlar. Onlar əkinçilikdə qırıb-yandırma metodundan istifadə edirlər. Rütubətli tropik meşə zonasında yaşayan hindular qəbilə icması quruluşunu saxlayırlar. Bu icmalarda torpaq sahələri yalnız vərəsəlik qaydasında verilir.

Hindu problemi, hindu əhalisinin vəziyyəti və onun gələcəyi ölkənin əsas ümummilli məsələlərindən biridir. Onun tam və ədalətli həlli üçün hindulara təkcə

torpaq vermək kifayət deyildir, həm də hindu icmalarında əsaslı sosial-iqtisadi dəyişikliklər aparılmalıdır.

Meksikanın demoqrafik inkişafı

İspan işğalından və hinduların kütləvi qırğınlarının törədilməsindən sonra dörd əsr ərzində Meksikada əhalinin sayı çox ləng artırdı. XX əsrin əvvəlində bu dinamika davam edirdi və bu say 14.3 milyon təşkil edirdi. 1910–1917-ci illər inqilabı və ABŞ-a mühacirətin artması da demoqrafik inkişafa mənfi təsir göstərirdi. II Dünya müharibəsindən sonra isə demoqrafik şərait əsaslı surətdə dəyişdi və Meksika, əhalinin sayının artım tempinə görə dünyada birinci yerlərdən birinə çıxdı. XX əsrin üç rübü ərzində ölkədə əhalinin sayı dörd dəfə artmışdı, əsrin başlanğıcındakı ilə müqayisədə, əhalisinin sayı ondan üç dəfə çox olan Yaponiyaya çata bilmişdi və demoqrafiyanın baş göstəricisi indi 123 milyona bərabərdir.

Yaş tərkibinə görə isə Meksika dünyanın ən cavan ölkələrindən biridir. Əmək qabiliyyətinə çatmış hər 100 nəfərə təqribən bir o qədər də uşaq düşür. Həm də Meksikada qadınlara nisbətən kişilərin sayı azdır. Qadınların kəndlərdən şəhərə axını ardıcıl olaraq artır.

Meksikalıların təqribən 3–5 faizi «elita»nı təşkil edir. Milli gəlirin yarısından çoxu isə onlara məxsusdur. İqtisadi cəhətdən aktiv əhalinin 2/5-i kənd təsərrüfatında çalışır. Ticarət sferası, müxtəlif formadakı xidmətlər isə özünə xeyli işçi qüvvəsi cəlb edir.

Əhalinin böyük qruplarının savadsızlığı Meksikaya xas olan mənfi xüsusiyyətlərdən biridir. Əhalinin əsas kütləsi məktəbdə dörd ildən az oxumuşdur. Əhalinin xeyli hissəsinin pis qidalanması da xalqın nisbətən ağır olan maddi vəziyyətindən xəbər verir. Bəzi yerlərdə qıtlıq ucbatından adamlar sutkada ancaq iki dəfə qidalanırlar. Meksikalıların əsas qidası qarğıdalı və lobyadır, qiymətli ərzaqlar, hər şeydən əvvəl heyvan mənşəli zülallar olduqca az miqdarda istehlak olunur. Qarğıdalı onların həyatının əsasıdır, lakin ratsionda onun üstünlüyü qidanın balanslaşdırılmamasını bildirir. Qarğıdalını Meksika xalqının eyni zamanda «xoşbəxtliyi və bədbəxtliyi» adlandırırlar. Hindu əhalisi xüsusən pis qidalanır. Bəzi ştatlar coğrafiyanın özünəməxsus aclıq və keyfiyyətsiz qidalanma zonasını təşkil edir.

Meksika sıx əhalisi olan ölkələrə aiddir. Hər kvadrat km-ə 30 adam düşür, bu da orta dünya səviyyəsindədir. Əhalinin xeyli hissəsi Meksikanın mərkəzi

hissəsində yaşayır. Orada bir neçə min il əvvəl dünya əkinçiliyinin ən qədim ocaqlarından biri meydana gəlmişdi. Bütövlükdə isə müasir Meksikanın əhalisi təqribən 30 rayonda cəmləşmişdir, onları çox hallarda dağ silsilələri, səhra və yarımsəhra çöllər, həm də çətin keçilən tropik meşələr ayırır.

Meksika təkcə relyefinə görə deyil, həmçinin əhalisinin yerləşməsi baxımından dağlıq ölkədir. Dağların xeyli hissəsi Meksika yaylasında mərkəzləşmişdir.

Kənd zonalarında iri kəndlər çoxluq təşkil edir. Onların çoxu dağ yamaclarında yerləşir. Meksikada deyirlər ki: «Hər kənd öz dağına malikdir». Səhra və yarımsəhra zonasında isə əhali maldarlıqla məşğul olduğuna görə azdır. Əkinçilikdən fərqli olaraq, Kolumba qədərki hindu tafyalarına maldarlıq məşğuliyyəti yad idi. Çünki burada nə qaramal, nə qoyun-keçi, nə də at var idi. Nəinki məhsul verən, heç qoşqu heyvanları da qədim Meksika sakinlərinə məlum deyildi.

Böyük şəhərlər kənd yerlərindən gələn köçkün axınını özünə maqnit kimi cəlb edir. Ona cörə də kənd əhalisi sürətlə azalır, indi kənd yerlərində 1 kvadrat km. ərazidə yalnız 1 nəfər adam yaşayır. Həm də Meksika köhnə şəhər həyatı ənənələrini yaşadan ölkədir. Mexiko, Qvadalaxara və Monterrey ümummilli əhəmiyətə malik olmaqla yanaşı, bütün Latın Amerikası miqyasında iri iqtisadi mərkəzlər hesab olunur. Digər şəhərlər isə, əsasən, ştatların paytaxtları kimi tanınır.

İqtisadi inkişaf mərhələləri

II Dünya müharibəsindən sonra sənayeləşmə ilə əlaqədar olaraq yeni ixtisaslaşmış sənaye mərkəzləri yarandı, bunların arasında neft və qaz hasilatı və emalı sənayeləri seçilir. Sərhəddə xüsusi «Əkiz şəhərlər» tipi meydana gəldi ki, belələri Latın Amerikasının başqa heç bir ölkəsində yoxdur. Onlar Meksikanın digər rayonlarından daha çox ABŞ şəhərləri ilə sıx bağlıdırlar. Meksikanın aparıcı turizm ölkələrindən birinə çevilməsində, onun bu rayonlarında yaradılan turist mərkəzləri böyük əhəmiyyət daşıdı. Sakit okean sahilindəki Akapulko, Karib dənizi sahilindəki Kankun kurortları və hindu mədəniyyəti abidələri yaxınlığındakı çox sayda şəhərlər onların sırasına daxildir.

Müasir Meksika digər inkişaf edən ölkələr arasında nisbətən yüksək iqtisadi səviyyəsi ilə fərqlənir, onun inkişafı bol xammal bazasına əsaslanır. Ölkənin yerinin təki çox sayda böyük metal filizi, neft, təbii qaz və kükürd ehtiyatlarına

malikdir. Öyrənilmiş və istifadə edilən iri enerji resurslarının, hər şeydən əvvəl neftin, qazın və hidroenerjinin bol olması iqtisadi inkişaf üçün xüsusi əhəmiyyət kəsb edir.

Meksika Braziliya və Argentina ilə birlikdə sosial-iqtisadi inkişaf səviyyəsinə görə Latın Amerikasının ən çox sənayeləşmiş ölkələri siyahısına daxildir. Burada əsas yeri emal sənayesi tutur. Nəqliyyat infrastrukturasının ümumi geriliyi sahələr və rayonlar arasında daxili iqtisadi əlaqələr yaradılmasında çətin keçilən maneə rolunu oynayır. Əvvəllərdə olduğu kimi, Meksika qonşu ABŞ-ın təsərrüfatı ilə sıx bağlıdır. Sənayedə işləyən meksikalıların gəliri isə Birləşmiş Ştatlarda olduğundan 6 dəfə, kənd təsərrüfatında çalışanlara nisbətən isə müvafiq olaraq 15 dəfə aşağıdır.

Az məhsuldar əkinçilik meksikalıların xeyli hissəsinin əsas məşğuliyyət növüdür, lakin bu sahə sürətlə artan əhalinin tələbatını bütünlüklə ödəmək qabiliyyətində deyildir. Meksika kənd təsərrüfatında pambıq, kofe, meyvələr və müxtəlif tərəvəzlər istehsalı xüsusi əhəmiyyətə malikdir. Emal sənayesində isə transmilli korporasiyalar əsas mövqelərə nəzarət edirlər. Məhsulun xeyli hissəsi Birləşmiş Ştatlara daşınır. Beynəlxalq əmək bölgüsündə Meksika hələ də bazara xammal əmtəələrini göndərən ölkə rolunu oynayır.

Latın Amerikasının bütün ölkələrindən Meksikaya daha çox turist gəlir. Onları mayya və atsteklərin qədim mədəniyyət abidələri, gözəl dəniz kurortları, unikal landşaft cəlb edir. Dövlət turizm industriyasının inkişafına ciddi fikir verir, yeni turist mərkəzləri yaradılır, köhnələr modernləşdirilir.

Neft və qaz, əsasən Meksika körfəzinin sahilində, Tampiko limanının yanında çıxarılır. Neft hasilatını xarici inhisarçılar bütünlüklə öz əllərinə almışlar. Yeni yataqların kəşfi isə Meksikanı dünyanın ən iri neft ölkələri sırasına daxil etdi.

Meksika həm də hidroresurslarla zəngindir. Təbii isti su mənbələrindən də elektrik enerjisi alınır. Qara metallurgiya da möhkəm xammal bazasına malikdir. Əsas Latın ölkələri arasında Meksika ənənəvi olaraq əlvan metallurgiyanın inkişafı səviyyəsinə görə seçilir. Ölkədə yerin təki əlvan metal filizləri ilə zəngindir.

Təbii iqlim amillərinə görə Meksika ərazisi kənd təsərrüfatı məhsulları istehsalına az yararlıdır. Ölkənin sahələrinin 40 faizini səhralar və yarımsəhralar tutur, ikinci 40 faizini isə dağlar və meşələr təşkil edir. Ərazinin yalnız 15 faizinə yaxını, özü də suvarma şərti nəzərə alınmaqla kənd təsərrüfatı üçün yararlıdır. Hazırda Meksikada 4 milyon hektardan artıq suvarılan torpaq vardır və bu göstəriciyə görə ölkə dünyada aparıcı yerlərdən birini tutur.

Kənd təsərrüfatının aparıcı sahəsi əkinçilikdir. Belə ki, bitkiçilik bütün kənd təsərrüfatı məhsulu dəyərinin 60 faizindən çoxunu verir. Heyvandarlığın payına isə 34 faizə qədəri düşür. Becərilən əsas ərzaq bitkiləri qarğıdalı, buğda, düyü və lobyadır. Qarğıdalı və lobya ölkənin hər yerinə yayılmışdır və başlıca ərzaq

bitkiləri hesab olunur. Meksika alimləri quraqlığa davamlı buğda sortları yetişdirmişlər. 1970-ci illərdə Azərbaycanın Muğan rayonlarında «tritikale» adlanan Meksika sortu becərilirdi, bu buğda formasında olan, əslində, çovdar-buğda hibridi idi. Bu yem bitkisi bizdə ərzaq buğdası kimi becərilir və buğda kimi də tədarükə təhvil verilirdi. Sonralar bu rayonlaşdırılmamış bitki sortuna aludəçililik azaldı və həmin özfəaliyyət həvəsi uzun sürmədi. Meksikanın özündə isə suvarma zonalarında texniki bitkilərdən pambıq becərilir.

Mədəniyyət: ənənə və müasirlik

Öz ispan əcdadlarından dili bir vərəsə kimi götürən müasir meksikalılar maddi və mənəvi mədəniyyət sferalarında həm də müxtəlif hindu xalqlarının bir sıra xüsusiyyətlərini qəbul etmişlər. Onları dəyişdirib, bu mefamorfoza prosesində həmçinin formalarını inkişaf etdirərək, əslində yeni səviyyədəki Meksika mədəniyyətini yaratmışlar. Bu mədəniyyət, hindu xalqlarınınkından olduğu kimi, ispan mədəniyyətindən də fərqlidir.

Meksika mədəniyyətinin ikitərəfli mürəkkəb mənşəyi onun bütün ifadələrində nəzərə çarpır. Belə ki, yuxarıda deyildiyi kimi, Meksika əkinçiliyində qarğıdalının əhəmiyyəti indi də saxlanılır, o isə təmiz ənənəvi hindu ərzaq bitkisidir. Hələ Kolumbdan əvvəlki dövrdə Meksika iqitisadiyyatı bu bitkinin becərilməsinə və onun məhsulunun istehsalına əsaslanırdı. Buğdanı isə buraya ispanlar gətirmişdilər.

Meksika əkinçiliyi başlıca olaraq hindu irsi əsasında inkişaf etmişdi, heyvandarlığı isə yalnız ispanların bir töhfəsi saymaq olar. Avropalıların gəlişinə qədər hindu tayfaları ətini yemək üçün və ov üçün yalnız it saxlayırdılar, indi də meksikalılar əziz qonaqlarına it kəsir və ya belə təkliflə müraciət edirlər. Akapulkonun bir il əvvələ kimi üç il müddətinə meri işləmiş professor bizi evinə dəvət edəndə, it kəsməyi təklif etdikdə, mən müxtəlif bəhanələrlə boyun qaçırdım. Onun həyətinə maşınla girəndə portağal bağının arasında iri budlu, qısa tükləri olan iki it bizə yaxınlaşdı. Eks-mer, yəqin ki, onlardan birini kəsməyi nəzərdə tutmuşdu. Bundan beş il əvvəl Özbəkistanda olarkən koreyalıların yaşadığı və işlədiyi məşhur «Politotdel» kolxozuna getmişdik. Vaxtilə bu kolxozun futbol komandası bizim «Neftçi»miz və Daşkəndin «Paxtakor»u kimi SSRİ çempionatının «B» qrupunda oynayırdı və hələ 50-ci illərdə kolxozun böyük futbol stadionu var idi. Məşhur sədr, Sosialist Əməyi qəhrəmanı Xvan, Qdlyan və İvanovun respublikada apardıqları kütləvi repressiya əməliyyatı nəticəsində həbs edildiyindən, onu cavan bir adam əvəz edirdi. O, bizə yerli koreyalıların həyətlərindəki ətlik kiçik itləri göstərdi və hörmətli qonaq kimi bizə it kəsməyi

təklif etdikdə, mən razılıq vermədim, ona görə də kolxozun fermasından olan bol bildirçin qızartmasına və soyutma yumurtalarına qonaq olduq. Bir xalq kimi koreyalılarda, vyetnamlılarda it əti istehlakda əslində xüsusi yer tutur.

Hindu tayfaları o vaxtlar Şimali və Mərkəzi Amerikada bol olan vəhşi hinduşkanı da əhilləşdirmişdilər. Bundan başqa, onlar həm də bal arısı saxlayırdılar. Meksikalıların ispanlara qədər heyvandarlıq təsərrüfatı yalnız bu üç növdən ibarət idi.

Avropalılar gələnə qədər Amerika, ümumiyyətlə, kotan əkinçiliyini də tanımırdı və indiki dövrdə də Meksikada sərt maili torpaqlar, dağ yamacları şumlanmır, orada torpaqlar və bitkilər qazan dirək vasitəsilə becərilir. Onlardan istifadə təkcə məhsul istehsalına xidmət etmir, həm də torpaqları güclü yağış yağanda yuyulmadan, sürüşmədən, sərt eroziyadan qoruyur.

Bitkilərin becərilməsində həm də universal əhəmiyyətli ağır bıçaqdan – maçetedən istifadə olunur, bu alət avropalılar gələndən sonra meydana çıxmışdır. Maçete ilə torpağı kollardan təmizləyirlər, həm də şəkər qamışını biçirlər. Maçete daha çox bizə Kubadakı şəkər qamışı plantasiyalarındakı biçin prosesindən tanış idi. Fidel Kastro da şəxsən biçində əlində maçete iştirak edirdi. Gələcək ispan dili mütəxəssisləri olacaq sovet tələbəri də Kubada staj keçdikləri müddətdə əllə şəkər qamışı biçininə cəlb olunurdular. Sonralar kombaynlar meydana gəldi.

Meksikada qədimdən, ispanlara qədər olan dövrdən əkinçiliyə həm də kəndlərdəki kustar istehsallar da əlavə olunurdu. Qədim dulusçular, daşyonanlar, toxucular və zərgərlər qəribə ustalığa yiyələnmişdilər.

Meksikalıların evləri yerli şəraitdən asılı olaraq müxtəlif materiallardan – gildən, çiy kərpicdən, daşdan, çubuqlardan və qamışdan tikilirdi. Tropik zonada evlərin damı hündür idi, samandan olurdu, mülayim zonada isə onlar kirəmitdəndir. Kasıb adamların komalarında, adətən, pəncərələr olmurdu, onlar olduqca kasad şəraitə malik olurdu. Adamlar, adətən, həsir üstündə yatırdı, cənubda isə bəzi hallarda qamakda yatırdılar, qamak yatanları sürünən həşəratlardan qoruyurdu, Evin müxəllifatı xörək üçün qabdan, su üçün böyük küpədən və alət kimi isə taxılı döyən metatedən ibarət idi.

Varlıların evində isə ispan ənənələri nəzərə çarpırdı. Meksikalıların da daxili həyətində, ispanlarda olduğu kimi, isti və bürküdən adamı azacıq xilas edən patio – yaşıl bitki kollarının və kiçik fəvvarənin olduğu məkanın olması vacib sayılırdı.

Maddi mədəniyyətin daha bir sferasında ispan və hindu irsinin təsiri aydın nəzərə çarpır. İspanlar gələnə qədər hindu xalqlarına təkərdən istifadə prinsipi məlum deyildi. Məhz buna görə də onlar dulusçuluq dövrəsini bilmirdilər. Bundan əlavə, Meksikada yük heyvanları da yox idi və belə dağlıq ölkədə XVI əsrə qədər bir yerdən başqa yerə getmək növü ayaqla yerimək idi. Su yollarından da, demək olar ki, istifadə olunmurdu, bütün yüklər beldə və ya əllə daşınırdı. Maraqlı cəhət

odur ki, Meksikada indi də müasir nəqliyyat növləri ilə yanaşı, bəzi rayonlarda hambal sənəti kimi tameme qalmışdır, bu ağır işlə daha çox hindular məşğul olurlar. Hindular yükü beldə daşıyırlar, onun bərkidildiyi boyun qayışı hambalın alnından keçir.

Sakinlərin paltarına gəldikdə, ABŞ sərhədinə yaxın olan yerlərdə kombinezon geyinirlər. Kombinezon Uinston Çörçillin də sevimli ev paltarı idi. Çiyinə baş üçün deşiyi olan və həm qabağı, həm də arxanı örtən və sarape adlanan büründcək atırlar: başqa hindu xalqlarında bu «pançо» adlanmaqla, həm paltar rolunu oynayır, həm də yatanda yorğanı əvəz edir. Qızmar günəşdən qorunmaq üçün başı müxtəlif formadakı samandan toxunan şlyapalar ilə örtürlər. Onun iri dəyirmi kənarları olduqda sombrero adlanır (ispan sözü olan "sombra" "kölgə" deməkdir). Meksikalı dostlarımız sombreronun şərəfinə poetik dildə uzun monoloq söyləməyə daim hazırdırlar. Onlar əziz qonaqlarina nazik qızıl saplarla işlənmiş sombrerolar bağışlayırlar, bizə də belə hədiyyə verdilər.

Qadın milli geyimi isə olduqca müxtəlif və rəngarəngdir. Bu geyimin mütləq hissəsi reboso adlanan şaldır, onunla lazım gəldikdə başı örtürlər, hindu qaydasında uşağı beldə gəzdirmək və ağır yükü daşımaq üçün də ondan istifadə edilir. Köhnə dövrlərdə Azərbaycan qadınları da uşağı beldə gəzdirmək üçün hindulara oxşar qaydada şalı həm də bu məqsəd üçün istifadə edirdilər. Meksikalı qadınlar bəzək şeylərini çox sevirlər, bu məsələdə onlar bizim yaxşı tanıdığımız kürd və qaraçı qadınlarına bənzəyirlər.

Kişi paltarının bir yaraşıqlı növü də vardır və o, milli geyimə çevrilmişdir. Bu, çarro adlanan atlı kostyumudur. Bu paltar dar qara şalvardan, uca dabanı olan qara çəkmədən, qalstuk və ya boyun ləçəyi ilə bağlanmış ağ köynəkdən və gödək jiletdən ibarətdir. Kostyumun xoş təsirini iri sombrero tamamlayır.

Meksika milli mətbəxində, əsasən, qarğıdalıdan istifadə olunur, onu isladıb, metatedə döyürlər. Yumşaq kütlə əmələ gəlir. Onu sadəcə olaraq suya qarışdırıb içirlər, bu yemək növü atole adlanır. Daha çox isə ondan kökələr – tortilya bişirirlər. Bəzən onu azərbaycanlıların pendir dürməyi kimi büküb, içinə ət qoyurlar. Əlavələr rolunu pendir və çile bibərinin başlıca rol oynadığı müxtəlif souslar oynayır. Əhalinin qidalanmasında qarğıdalı ilə yanaşı, lobya və düyü də böyük yer tutur.

Çile bibəri olduqca acıdır, onunla tanış olmayan adam onu yedikdə dodaqlarının yanında suluq əmələ gəlir. Ancaq meksikalılar süfrədə ondan çox istifadə edirlər. Şorba yeyəndə, çileni onun suyuna batırıb, sonra ağızlarına ötürürlər.

Meksikada çox yayılmış milli içki pulke və ya maqey aqavasının qıcqırdılmış şirəsidir. Pulkeni hazırlamaq üçün aqavanın tikanlı budaqları kəsildikdən sonra onun çox iri qarpız boydakı kökü çıxarılır və şirəsi emala məruz qalır. Mavi aqavadan isə dünyada məşhur olan tekila adlanan araq hazırlayırlar.

Tekilanın başqa növ araqlardan tam fərqli olan öz içilmə qaydası vardır və onda limondan , həm də duzdan istifadə olunur.

Meksikada pivə də çox içilir və pivə sifariş verildikdə, onun «bianko» və ya «neqro» – ağ və qara olması soruşulur. Qara pivə ağ pivənin içməyə öyrənənlərə ekzotik məhsul kimi daha xoş gəlir və irland qara pivəsindən fərqli olaraq bu, o qədər də acı olmur.

Qədim xalq içkisi isə şokoladdır, ancaq əvvəllər onu indi olduğundan başqa cür hazırlayırdılar. Buradan həmin içki bütün dünyaya yayıldı. Meksikalılar bəzi xörəklərə bol şokolad sousu əlavə edirlər. Mexikonun «Dörd atlı» restoranında meksikalı dostlarımız hinduşka əti sifariş verdilər. Qarnir kimi düynün üstü qara şoşkolad sousu ilə örtülmüşdü. Hinduşka əti də çox yumşaq idi, bıçaq onu yağ kimi kəsirdi.

Digər katolik ölkələrində olduğu kimi, Meksikada kilsə bayramları çoxdur. Bayrama əvvəlcədən hazırlaşırlar və bütün mahaldan qonaqlar dəvət edirlər. Hindu icmalarında təşkil edilən kilsə bayramlarında köhnə hindu mərasim rəqslərinin ifasını da görmək mümkündür.

İspanlar fiestaları sevdikləri kimi, mekslkalılar da karnavalların vurğunudurlar. Şəhərlərdə belə karnavallar doqquz gün davam edir. Qadınlar, qızlar çox bəzəkli paltarlar geyinirlər, kişilər də onlardan geri qalmamağa çalışırlar. Lakin buradakı karnavallar Rio-de-Janeyronun məşhur karnavalı ilə müqayisədə uduzurlar. Karnaval iştirakçıları utanmağa məhəl qoymadan həm də erotik səhnələr nümayiş etdirirlər.

Lakin ən maraqlı və təəccüb doğuran bayram ölənlərin yad edilməsi və ya «ölülər günüdür». Meksikalılar doğumu və ölümü həyatın fazaları hesab etdiklərindən, digər xalqlarla müqayisədə ona başqa cür münasibət bəsləyir, ölümü fəlakət rəmzi kimi qəbul etmirlər. Meksikalıların bayramları içərisində bu, ən milli bayram olmaqla, onların qədim dini və fəlsəfi baxışlarını çuğlaşdırılmış şəkildə ifadə edir və bunda adamların ölümə münasibətlərinin özünəməxsusluğu öz əksini tapır. Həmin gün matəmi yad etməkdən əsər-əlamət olmur, şadlıqla keçən bir bayram şənliyinə çevrilir. Qəbiristanlıqda hüzn yeməyindən sonra yaşlı adamlar şadlanmağa başlayır, uşaqlar isə Meksika barədə sənədli filmin müəllifi, məşhur kino xadimi Sergey Eyzenşteynin yazdığı kimi: «şəkərdən düzəldilmiş adam başlarını və kiçik qəbirlər formasındakı şokoladı yeyir və insan skeleti şəklində olan oyuncaqlarla əylənirlər».

Biz 9 noyabrda Akapulkoda olarkən məni şəhərin eks-meri evinə qonaq dəvət etdi və dəvət xanımının xahişi əsasında olduğuna görə etiraz edə bilmədim və bir nəfərlə ora getdim. Onun evi şəhərin şimal tərəfində, təpənin üstündə yerləşirdi və oradan Sakit okean sahilinə gözəl mənzərə açılırdı. Evin həyəti subtropik meyvə ağaclarından ibarət bağla örtülü idi. Ev sahibəsi ilə tanış olduq, sifətindəki hindu cizgiləri onun an azı metis olduğunu göstərirdi. Dəvəti qəbul

etdiyimizə görə səmimi şəkildə minnətdarlığını bildirdi. Biz qonaq otağına keçdik və professor qonşu otaqdakı o qədər də zəngin olmayan kitabxanasını göstərdi. Bizi bayram münasibətilə hazırlanmış şirniyyatlara və digər milli xörəklərə qonaq etdilər. «Ölülər günü» olmasına baxmayaraq, biz məclisdə heç bir hüzn əlaməti hiss etmədik, əksinə, evdə şadlıq əhval-ruhiyyəsi hökm sürürdü.

Hər bir meksikalıya uşaqlıqdan tanış olan gülən ölümün karnaval obrazı, zamanın hər şeyə qalib gəldiyini təcəssüm etdirir. Zaman daim dünyaya məhv olma və yeniləşmə gətirir – bu obraz xalqın həyatı necə hiss etməsini açmaqla yanaşı, yaşanılan ömürün və ölümün birliyi, vəhdəti barədə qədim atstek konsepsiyasını əks etdirir.

Ümummilli bayramlar içərisində İstiqlaliyyətin elan olunması Günü meksikalılara xas olan şadlanmaqla, hay-küylə, qələbəliklə, əlvan tamaşa səhnələri ilə keçirilir.

Meksikalıların sevdikləri oyun, öküz döyüşü – korridadır. İlk öküz döyüşü hələ 1529-cu ildə keçirilmişdi, bu vaxt Meksikanın işğalından vur-tut 10 il keçirdi. İndi isə o, milli bayrama çevrilmişdir. Cavanların öz cəldliyini və cəsarətini göstərmək oyunlarından digəri isə rodeodur. Öküzü quyruğundan tutub yerə yıxır və sonra onu minib çapırlar. Meksikada futbola da həmçinin böyük azarkeşlik göstərilir.

Mexiko. Atsteka stadionu

Şifahi poeziya və musiqi Meksikada geniş yayılmışdır. Xalq yaradıcılığında onların iki əsas mənbədən olan axını – ispanların və meksikalıların folklorunun bir-birinə çuğlaşmış sintezində vahid mahiyyəti əks etdirir. Poeziyada ispan şeir ənənələri üstünlük təşkil edir. Bütövlükdə isə Meksikada şifahi xalq yaradıcılığı

müxtəlif dillidir. Hər bir yerdə meksikalıların və hinduların öz rəvayətləri, əfsanələri vardır və onlar bəzən Kolumbdan əvvəlki epoxaya gedib çıxır.

Mahnı folkloru da zəngin və rəngarəngdir. Onun ən maraqlı forması balladadır – siyasi xarakterli korridodur. Korrido demokratik janrdır və onu xalq özü qoşur. Bu mahnıları, adətən, gitaranın müşayiəti ilə kişilər oxuyur. Qoşulub, bəstələnib oxunan mahnılar bir müğənnidən digərinə keçir. Mahnılarda ispan təsiri güclü olsa da, yüzillər ərzində onlaraa Meksika xalq lirikasının ritm və melodiyasının təsiri keçmişdir və daha yumşaq səslənməni qəbul etmişdir.

Meksikalılar, ümumiyyətlə, çox musiqi sevən xalqdır və buna nümunə – hər gün ölkənin musiqi həyatında özünü göstərən köçəri xalq orkestrləri – mariaçilərdir. Onlar, əsasən, simli alətlərdən – gitaralardan, skripkalardan ibarətdir. İndi isə ona trubanı də əlavə edirlər. Belə orkestrin tərkibində 12-yə qədər musiqiçi olur. Onlar şəhərləri və kəndləri gəzir, yarmarkalarda və toylarda çalırlar. Mariaçilər çox kiçik məbləğə də istənilən sifarişi yerinə yetirirlər.

Mariaçilər

Mariaçi musiqisinin və gitaraçılar dəstəsinin çalğısı altında meksikalıların xalq rəqsləri ifa edilir. Meksikalıların rəqsləri də özünəməxsusdur. Ən geniş yayılmış rəqs xarabe tanatiodur, onu tanqo kimi cütlüklər ifa edir.

Professional ədəbiyyatda, təsviri sənət və fəlsəfədə də iki çox fərqli mədəniyyətlər dünyası birləşmiş, ispan ənənələri hindu mədəniyyətini tamamlamışdır. Öz ifadəsini bu, təsviri sənətdə daha çox tapmışdır. Dieqo Riveranın, Xose Oroskonun, David Sikeyrosun əsərlərində ənənəvi motivlər çox güclüdür, burada söhbət üslüblaşdırmaqdan deyil, həqiqi vərəsəlikdən, xalq ənənələrinin ruha nüfuz etməsindən gedir. XX əsrin bu nəhəng rəssamları öz fərdi fərqliliklərinə baxmayaraq, onları yeni sənətlə qədim xalq ənənələri arasındakı körpü birləşdirir.

Mexiko. İncəsənət sarayı

Meksika divar rəsmləri – murallar barədə ayrıca danışmaq lazımdır, çünki bu növ rəngkarlıq ölkədəki yaradıcı insanların sənətində xüsusi və daha böyük yer tutur. Binaların divarlarında, hasarlar üzərində böyük rəsmlər çəkmək adi hal xarakteri daşıyır. Latın Amerikasının digər şəhərlərində də divar rəsmlərinə tez-tez rast gəlmək olur. Mexikonu gəzdikcə dahi rəssamların yaratdıqları incilər göz oxşayır.

Tikililərin böyük düz səthini hansısa bir mövzudakı rəsmlərlə bəzəmək Kolumb epoxasına qədərki Meksika incəsənəti üçün xarakterik idi. Teotiuakan və Yukatan məbədləri bu qaydada bəzədilmişdi. Mexikonun kasıb adamların yaşadığı ucqar qəsəbəsində sınıq- salxaq evlər olduqca pis görünüşə malik idi. Şəhər meriyası çıxış yolunu tapdı, xeyli miqdarda boya ayırdı və könüllü rəssamları mural çəkməyə cəlb etdi. Beləliklə, 2 hektar ərazidə evlərin əvvəlki miskin görünüşü divarlara çəkilən murallaın və rəngarəng boyaların hesabına dəyişib, əvvəlkindən fərqli olan cazibədar bir mənzərə yaratdı.

Müasir monumentalist rəssamlar köhnə ənənələri mexaniki deyil, öz yaradıcılıqlarına üzvi surətdə qəbul etməklə və onları rəngkarlıq texnikasının ən yeni nailiyyətləri ilə birləşdirməklə, özünməxsusluğu ilə fərqlənən təkrarolunmaz yüksək sənət yaratmışlar və bu əsərlər həm də nəhəng sosial səslənməyə sahib olmuşdur. Murallarda abstrakt (mücərrəd) üsluba da geniş yer verilir. İctimai binaların otaqları və fasadı çoxrəngli rəsmlərlə örtülür. Bu əsərlərin mövzusu çox hallarda Meksika xalqının böyük keçmişi ilə, onun İstiqlaliyyət uğrunda mübarizəsi ilə, 1910–1917-ci illərin inqilabi hadisələri, dövrün sosial problemləri ilə bağlı olur. Burada Meksika incəsənətinin demokratik ənənələri, rəssamların öz xalqına xidmət göstərmək, faydalı olmaq istəyi üzə çıxır. Dieqo Riveranın

sözlərinə görə, Meksika rəssamları istərdilər ki, onların divar rəsmləri, əks olunmasında Meksika xalqının özünü gördüyü iri güzgüyə çevrilsin.

Meksika ədəbiyyatı da xeyli inkişaf etmiş, Xuan Rulfonun, Karlos Fuentesin, Oktavio Pasın əsərləri dünya şöhrəti qazanmışdır.

Ölkənin bir-birinə bənzəməyən regionları

Meksikanın ərazisi təbii şəraitinə görə, həm də inkişaf səviyyəsinə və əhalinin etnik tərkibinə görə olduqca rəngarəngdir. Ölkədə 8 iqtisadi rayon vardır və onlar başlıca iqtisadi zonaları təmsil edirlər.

Mərkəzi-cənub rayonu sahəsinə görə ölkənin əkinçilik rayonlarından biridir, lakin həmin ərazi daim ölkənin tarixi özəyi olmuşdur. Burada ən yüksək əhali sıxlığı vardır. Əsas məskunlaşma arealları dağlar arasındakı Mexiko, Toluka, Morelos məkanlarıdır. Bu rayonda heç bir iri çay arteriyası yoxdur. Su təchizatı da çox ciddi problem xarakteri daşıyır. Torpaqlar güclü surətdə eroziyaya uğramışdır, bu da kənd təsrərrüfatı ilə məşğul olmanı çətinləşdirir. Bu rayonun inkişafına paytaxt Federal mahalı güclü təsir göstərir.

Mexiko dağ halqası ilə bağlanmış vadidə yerləşir, bu dağların içərisində isə daim qarlarla örtülü Orisaba seçilir. İndiki Mexikonun yerndə atstek imperiyasının paytaxtı olan Tenoçtitlan yerləşirdi, bu şəhəri ispanlar qısa müddətdə viran qoymuşdular. Onlar Bağdadı, Tripolini, Xodeydanı və Suriyanın isə, demək olar ki, bütün şəhərləini xarabalıq məkanına çevirən müasir monstr vandalların eybəcər işlərinə hələ yarım min il əvvəl elə bil ki, start vermişdilər. Mərkəzi və Cənubi Amerikaya qırğınlar gətirən, bütöv sivilizasiyaları, maddi və mədəni varlıqları məhv edən ispan konkistadorlarını üç əsr əvvəl Xarəzmi, Bağdadı xarabazara çevirən monqol ordaları ilə də müqayisə etmək olar. Vandallar harada olmalarından asılı olmayaraq eyni ssenari ilə hərəkət edirlər, daim viranəlik izlərinin müəllifləri kimi xatırlanırlar, dahi Nizaminin xarabalıqlar arxitektoru olması ilə öyünən Ənuşiravanını yada salırlar.

Kortesin başçılığı altında 1519-cu ildə ilk dəfə şəhərə girən ispan konkistadoları onu tamamilə dağıtdı və şəhərin xarabalıqları üzərində yeni şəhər kimi Mexikonun əsasını qoydular. Zaman keçdikcə əvvəllər Mexikonu əhatə edən göl və kanallar quruduldu, onların yerində isə yollar salındı, evlər tikildi. İndi Mexikonun qonaqları çətin təsəvvür edə bilərlər ki, nə vaxtsa bu adada atsteklərdən kiçik iz də qalmamış möhtəşəm paytaxtları yerləşmiş imiş.

İndi şəhərə ərzağın və sənaye xammalının əksər hissəsi ölkənin digər rayonlarından gətirilir. Böyük Mexiko həm də ölkə idxalının 2/5-ni udur, özü də ixraca xeyli mal göndərir.

Burada Milli Elmlər Akademiyası, digər elmlər üzrə akademiyalar, elmi-tədqiqat institutları və Qərb yarımkürəsinin ən qədim ali məktəbi olan Meksika milli muxtar universiteti yerləşir. Milli Antropoloji Muzey isə dünyadakı ən zəngin muzeylərdən biridir, onun kolleksiyalarında arxeoloji abidələr, həmçinin məşhur atstek təqvimi vardır.

Respublika prezidentinin rəsmi iqamətgahı olan Palasio Nasyonal XVII əsrdə tikilsə də, bu binanın interyerini - divarlarını içəridən Dieqo Rivera XX əsrdə öz rəsmləri ilə bəzəmişdir.Şəhərin özünə gəldikdə, küçələri çox səsli-küylüdür. Hər yerdən – restoranlardan, barlardan, kafelərdən musiqi sədaları gəlir. Axşamlar mariaçi musiqiçilərinin onlarla qrupu olduqca kiçik məbləğdəki pula çıxış edirlər. Milli geyimdəki, başında iri sombrero olan mariaçi musiqiçilərinin özü bir tamaşadır. Həftədə bir-iki dəfə xalq musiqisi və rəqsi konsertləri təşkil edilir. Spesifik Meksika tamaşalarına atlıların «çarros» yarışması da daxildir, onlar atları ram edib çapmaqda, lassodan istifadə etməkdə bir-birləri ilə rəqabət aparırlar. Öküz döyüşü də çox populyardır. Soçimilkodakı üzən bağlar – «Çinampas» da bu xalqın əcdadlarının istedadına bələd olmağa şərait yaradır.

Mexikodan bir qədər aralıda Teotiuakan şəhərinin qalıqları yerləşir, bu şəhər IX–X əsrlərdə toltektlərin başçılığı altında birləşmiş hindu tayfalarının paytaxtı idi. Buradakı Günəş və Ay piramidaları daha böyük marağa səbəb olur. Keçmişlə öyünməklə yanaşı, müstəqillik qazanıldıqdan sonra meksikalılar uzun müddət şəhər arxitekturasının inkişafında öz yollarını axtardılar. Onlar müstəmləkə keçmişini xatırladan nümunələr xətti ilə getmək istəmirdilər və öz cəhdlərində heç də yanılmadılar.

Şəhərin arxitekturası nə qədər tərifləsə də, havası heç də yaxşı deyildir, çox çirklənmişdir. Həm də Mexikonun yerləşdiyi məkanının fiziki-coğrafi xüsusiyyətləri hesabına da bu problem daha da mürəkkəbləşir. Yağış mövsümündə nəhəng şəhər bəzən dolunun qalın örtüyü altında qalır, ayrı-ayrı hallarda isə qarın qalınlığı 1 metrə çatır. Belə hallar iqlimin dəyişilməsinə səbəb olur və ətraf mühiti dağıdır. Adamların özlərinin fəaliyyətinin nəticəsi kimi atmosfer palçığı göydən yerə düşür. Bütün bunlar nəzərə alınaraq, paytaxtın yerinin dəyişdirilməsi təklif olunsa da, böyük rus təmsilçisi İ. A. Krılovun sözləri ilə desək: «Araba indi də həmin yerdədir».

Mərkəzi-qərb rayonu Sakit okeana baxan yaylanın bir hissəsini tutur. Meksikanın bu hissəsini «Göllər ölkəsi» adlandırırlar. Ən iri göl Çapaladır. Münbit torpaqlar lazımi səviyyədəki rütubətlilik resabına müxtəlif bitkilərdən bol məhsul götürməyə imkan verir. Burada paytaxtdan sonra ikinci şəhər olan Qvadalaxara yerləşir, Böyük Qvadalaxaranın 4,1 milyon əhalisi vardır. Qvadalaxara iri və

mühüm nəqliyyat qovşağıdır, ona görə də regionun mühüm bölüşdürmə mərkəzinə çevrilmişdir. Həm də Qvadalaxara Meksikanın ən gözəl şəhərlərindən biridir, onun küçələrini və meydanlarını hələ ispanlar tərəfindən tikilmiş kilsələr və özəl evlər bəzəyir. Onu bəzi hallarda tropik ispan şəhəri, «Qərbin incisi» adlandırırlar.

Şimali-qərb rayonu Syerra-Madre, Sakit Okean və ABŞ ilə sərhəd arasındakı geniş ərazini tutur. Burada çox sayda çaylar axıb Sakit okeana tökülür. Onların suyu həm də suvarma üçün geniş istifadə olunur. Suvarma əkinçilik regionunun əmtəə iqtisadiyyatının əsasını təşkil edir. Pambıq və pomidor əsasən ABŞ-a ixrac olunur. Aşağı Kaliforniyanın baş şəhəri olan La-Pasdakı tral gəmiləri Kaliforniya körfəzində balıq ovu aparır.

Şimal rayonunun quraqlıq iqlimi, səhra və yarımsəhra bitkiləri vardır. Monterrey şəhərində əhali və sənaye istehsalı müəssisələri izafi qaydada təmərküzləşmişdir. Şəhərdə kəskin su çatışmazlığı mövcuddur, bu cəhətdən İspaniyadakı Mursiyanı xatırladır. Böyük Monterreydə 3,7 milyon əhali yaşayır.

Şimal-şərq rayonu Birləşmiş Ştatlar sərhədi və Meksika körfəzinin sahili ilə bağlı olan ərazini tutur. Burada torpaq münbitdir. Rayonun ixtisaslaşması yanacaq sənayesinə əsaslanır. Buradan ölkənin daxili hissələrinə neft və qaz göndərilir. Boru kəmərlərindən başqa dəniz nəqliyyatı da xeyli inkişaf etmişdir. Ölkənin iri dəniz limanı Tampikodur, şəhər həm də balıqçılıq sənayesi mərkəzidir.

Şərq rayonu Meksika körfəzinin sahil düzənliyini tutur. Burada rütubətli tropik iqlim hökm sürür, ildə 1.000 m-dən artıq yağıntı düşür. Şərq rayonunun başlıca var-dövləti neftdir. Əvvəllər bu rayon Meksikadakı neft hasilatının 90 faizə qədərini verirdi. Burada neft emalı zavodları, neft-kimya kompleksləri tikilmişdir. Boru kəməri nəqliyyatı da çox inkişaf etmişdir. Daxili rayonlardan sahilə geniş yollar çəkilmiş, digər nəqliyyat növləri də inkişaf etmişdir.

Şərq rayonunun kənd təsərrüfatı tropik plantasiya bitkilərinin – şəkər qamışının, kofenin, tütünün, həmçinin sitrus meyvələrinin becərilməsinə əsaslanır. Burada müasir metodlardan istifadə hesabına yüksək məhsul götürülür.

Şərq rayonunda böyük təbii otlaqlar vardır ki, bu da mal-qaranı kökəltməyə imkan verir. Verakrus isə qədim şəhər olmaqla yanaşı, ölkənin mərkəzi hissəsində hasil olan qiymətli metalları ixrac edir. Buradakı limandan mallar Avropa ölkələrinə göndərilir.

Yukatan rayonu eyni adlı yarımadada yerləşir. Mağaralarla dolu olan bu ərazidə zəngin neft və qaz yataqları tapılmışdır. Məşhur Kankun kurortu da həmin rayonda yerləşir. Turistləri cəlb etmək üçün mağaralardan da geniş istifadə edilir. Lakin Sloveniyadakı məşhur Postoyna Yama mağrasındakı gözəllikləri burda tapmaq çətindir. Orada stalaktit və stalaqmit fiqurların çoxu ağ, gümüşü mərmər təsəvvürü yaratmaqla, elə bil ki, heykələraş əlindən çıxmışdır. Piza qülləsini andıran, Sofi Lorenin döşü adlandırılan və digər çox sayda stalaqmit fiqurlar insanı

heyran qoyur. Gürcüstanda Tsxaltuba şəhəri yaxınlığındakı Prometey mağarası isə özünün haylı-küylü adını doğultmur, oradakı fiqurlar palçıq rəngində olmaqla, elə bir cəzbediciliyi ilə də seçilmirlər. Həm də bu mağara çox enişli-yoxuşlu olmaqla adamı yorur, gəzinti bol-bol əziyyət çəkilməsi ilə müşahidə olunur. Yukatan mağraları isə çox sayda və rəngarəng olmaları ilə seçilir.

Cənub rayonuna 4 ştat daxil olmaqla, onun biri Sakit okean sahilindəki Gerrero ştatıdır. Biz Akapulkoya gedərkən Gerrero ştatının ərazisindən keçdik, çünki həmin məşhur kurort da elə oradadır. Ölkədəki bütün hinduların 50 faizindən çoxu burada yaşayır və onlar olduqca kasıb həyat sürürlər. Bu yoxsulluq içərisində Akapulko bir vahə (oazis) kimi nəzərə çarpır. Burada nəhəng hidroelektrik stansiyaları tikilmişdir.

Turizm öz inkişafı üçün böyük imkanlara malikdir. Burada qədim hindu məskənləri vardır ki, onlar özünə əcnəbi turistləri maqnit kimi cəlb edir. Lakin inkişaf etmiş nəqliyyat sisteminin yoxluğu zonada iri turist mərkəzlərinin tikintisinə mane olur. Biz Mexikodan Akapulkoya avtobusla gedərkən yolun kələ-kötür, narahat olması ətrafdakı mənzərəni seyr etməyə də mane olurdu və abad yol bu zonada yalnız arzularda mövcuddur. Mexikodan çıxarkən yol üstündə məşhur "Atstek" olimpiya stadionunu gördük. Sonra isə səfərin narahatlığı başlandı. Yol həm də 3 km hündürlükdən keçirdi və yaxşı şəraitdə olmaması sərnişinlərin diskomfortunu artırırdı.

Akapulko Sakit okean sahilindəki ən məşhur kurortlardan biridir. Buranı əsasən Birləşmiş Ştatlardan gələnlər çox sevirlər. İstirahət edənlər və turistlər, əsasən, təyyarələrlə və Sakit okeanda üzən gəmilərlə gəlirlər. Şəhər dağ yamacından okean sahili ilə uzanır, əhalisi 2 milyondan çoxdur. Kurort şəhəri olduğundan burada uzun sahil boyu hündürmərtəbəli göydələnlərdən ibarət bahalı otellər yerləşir. Sahil və mərkəz çox abad və gözəldir, yamaca yaxın ərazilərdə isə kasıb şəhər əhalisi yaşayır. Otellərə müştəri cəlb etmək üçün binanın özünü və ətrafını çox təmiz saxlayırlar. Bir bahalı otelin qarşısında ekzotik quşlar saxlanırdı və biz ilk dəfə burada tutuquşu kimi rəngli lələkləri və uzun dimdiyi olan tukan quşunu gördük. Sahildəki okeanariumda təlim keçmiş delfinlərlə tamaşa göstərilirdi. Okean sahilindəki plyaj on kilometrlə uzunluqda olmaqla, qumunun dərinliyi ilə seçilir və ona görə də amerikanların sevimli istirahət yerinə çevrilmişdir.

Akapulko təkcə bu günü ilə öyünmür, onun keçmişində də qürur bəxş edən fəaliyyətlər mövcuddur. Hələ müstəqillikdən əvvəlki Meksikanın xarici ticarətində Akapulkonun xüsusi rolu var idi. Bu şəhər Filippinin seçilən ticarət məntəqəsi, gələcək paytaxtı Manila ilə öz qalleonları ilə Sakit okeandan üzüb keçməklə geniş ticarət aparırdı. Manilanın ölkənin adalarına siyasi ağalıq etməsi ilə yanaşı, bu, onu həm də iri kommersiya mərkəzinə çevirmişdi. Akapulko Meksikada istehsal edilən gümüşü Çin ipəyi ilə dəyişdirməklə böyük qazanc əldə edirdi. XVIII əsrin sonunda Akapulkonun Manila ilə qalleon ticarətinin tədricən inkişaf etməsi nəticəsində

Filippində inhisar yaranmasına səbəb olmuşdu. Beləliklə, Akapulko təkcə Meksikanın deyil, uzaq Filippinin də kommersiyasına əsaslı köməklik göstərmişdi.

Şəhərin bir az əvvəl meri işləmiş professor bizimlə çox mehriban görüşdü və şəhərlə tanışlıqda bələdçiliyi könüllü olaraq öz üzərinə götürdü. Şəhərdə maraqlı cəhətlər çoxdur. Ekzotikaya gəldikdə, cənubdakı təpə üstündə, hava limanına gedən yolun yanındakı restoranda isə digər təamlarla yanaşı, ekzotik xörək kimi, bizdəki qavala bənzəyən donuz dərisinə də qonaq etdilər. Əlbəttə, dəri çox yağlı idi.

Akapulko şəhəri

Akapulkoda bizi bir axşam, əks tərəfdəki yamacı hamilə qadının qarnına bənzəyən qayadan okean sularına tullananların olduqca təhlükəli tamaşasına baxmağa apardılar. Qayanın əks tərəfindəki meydançada bilet almaqla bura daxil olmuş tamaşaçılar toplanmışdı. Onlar ayaq üstə, qaranlıqda qarşıdakı qayadan suya tullanan gənc adamların, ölümlə üzləşmək riskinə baxmayaraq bu tryuku icra etmələrinə şahidlik edirdilər. Qayanın zirvəsindən bir az aşağıda onun göbəyi xeyli qabağa çıxmışdı. Yuxarıdan, azı 50 metr hündürlükdən tullanan, bu qabarıq hissəyə tozxunmamaq, əslində, ölməmək üçün əvvəlcə xeyli irəli tullanır, sonra aşağı uçmağa başlayırdı. Onların arasında həlak olanlar da olmuşdur. Tarzan rolunun ifaçılarından biri sonralar belə tullanışa cəhd etdikdə, qayaya çırpılıb məhv olmuşdu. Bir neçə belə qorxulu sıçrayışa baxdıq. Həm də izah etdilər ki, tullanan adam dar boğazdakı suyun qabarmasına və çəkilməsinə də fikir verməlidir, yoxsa dalğaya da çırpılıb ölə bilər. Yamacın çıxıntılı yerindən aşağıda isə uşaqlar oradan suya tullanırdılar.

Tamaşa vaxtı hansısa qorxulu bir hadisə baş vermədi, lakin bir məsələ ovqatımızı korladı. Böyük riskə gedərək, həyatımı ölümün açılmış çənəsinə atan həmin cavan oğlanlar sudan çıxıb, yuxarısında dayandığımız qayanın üstünə dırmaşdıqdan sonra əl açıb tamaşaçılardan pul yığırdılar. Görünür, onların «ölüm oyunu»nun haqqı o qədər də yüksək deyildir ki, onlar, az qala «dilənçilik» etməyə məcbur olurlar. Bir az əvvəl taledən mərhəmət umanlar, indi adamlardan maddi

vəsait şəklindəki sədəqəni gözləyirdilər. Viktor Hüqo demişkən: «Ehtiyac öz qanunlarını diktə edir».

Akapulko. Qorxulu qayadan dənizə tullanma tamaşası

Akapulkoda bizi Nüvə Problemləri İnstitutuna apardılar və burada gedən elmi-tədqiqat işləri ilə tanış olduq. İnstitutun direktoru və elmi işçiləri bizə nüvənin parçalanması barədə geniş məlumat verdilər. Sonra isə direktor bizi meşədə təşkil etdikləri piknikə – təbiət qoynundakı ziyafətə dəvət etdi. Bu qonaqpərvərlik nümunəsi bizə olduqca yaxşı təsir göstərdi. Məclisimizin yanında bir neçə əlik sakitcə otlayır, heç hay-küyə də məhəl qoymurdular. Görünür, insanların xoş münasibətinə adət etdiklərindən, onlardan heç bir təhlükə gözləmir və qorxmurdular. Bu mənzərə Hindistanın vəhşi heyvanlara xüsusi qayğı göstərən bəzi kəndlərini və Yaponiyanın xallı maralların sərbəst gəzdiyi Nara şəhərinin parkını xatırladırdı. Meksika hindularının və ispanların birgə törəmələri öz əcdadları olan avropalıların qəddarlıqdan qidalanan səhvlərini düzəltmək üçün təkcə başqa irqə mənsub olanlara deyil, vəhşi heyvanlara da buddistlər, hinduslar kimi mərhəmətli münasibət bəsləyirlər.

Məclisin sonunda direktor mənə iki butulka kolleksiya tekilasını hədiyyə kimi verdi və onları hörmət əlamti olaraq mərhum Azad Şərifov əlimdən aldı, avtobusda isə bildirdi ki, yəqin ki, siz də onları bizə bağışlamaq yolunu seçərdiniz və onun bu sözünə etiraz etmək heç də düzgün olmazdı.

Akapulkodan isə paytaxta təyyarə ilə qayıtmalı olduq və yolun yorğunluğundan azad ola bildik.

Ölkənin təbiəti

Meksikanın təbiəti qeyri-adi dərəcədə rəngarəngdir. Kaktus kolları olan geniş yüksək plato və rütubətli tropik meşələr, bataqlıqlaşmış düzənliklər, qarla örtülü konusları olan nəhəng vulkanlar və dərin dərələr, palıd-şam ağaclarından ibarət meşələr, səhraya bənzər okean sahilləri bu müxtəliflik seriyasını tamamlayır. Rəngarənglik həm də ölkə ərazisinin relyefi ilə əlaqədərdir. Ölkə ərazisinin 2/3-nü Meksika yaylası tutur və o, iki hissəyə: Şimali və Mərkəzi Mesaya (ispan dilində «mesa» – «stol» deməkdir) bölünür. Şimali Mesa, yarımsəhra platodur və Mərkəzi Mesa ilə birləşir, axırıncı daha hündürdür və yüksək zirvələrə malikdir. Mərkəzi Mesanın vulkan külündən, suyu yaxşı keçirən münbit torpaqlar əmələ gəlmişdir. İtaliyada Vezuvi vulkanının püskürməsindən meydana gələn kül də yamaclardakı torpaqları xeyli münbit etmişdir.

Vulkanların fəaliyyəti ilə yanaşı, Meksikaya yüksək seysmik aktivlik də xasdır. Ölkədə 350-dən artıq seysmik ocaq vardır. Yerin quru səthində bütün qeydə alınmış zəlzələlərin onda biri Meksikanın payına düşür. Mexikoda 1985-ci ilin sentyabrında baş verən zəlzələ şəhərə böyük ziyan vurmuşdu, 5 min nəfər sakin həlak olmuşdu. Burada yer, nisbətən aşağı maqnitudada bütün stuka ərzində yüyrük kimi silkələnir. Zəlzələ təhlükəsi meksikalıların başı üzərindən Damokl qılıncı kimi asılmışdır. Meksikalılar buna heç də biganə deyillər. Piramidalara baxmağa gedərkən bizə zəlzələnin silkələnməsini qeyd edən, smaltadan düzəldilmiş və sapa düzülmüş xüsusi «zəng» rolunu oynayan sadə alət satdılar. Yer azacıq silkələnəndə də bu alət reaksiya verir.

Daha geniş düzənliklər isə Meksika körfəzinə çıxır. Yukatan yarımadasının düzənliklərində başqalarından fərqli olaraq çoxlu mağaralar və yeraltı çaylar vardır. Qədim arxitektura abidələri - piramadılarla yanaşı bu mağaralar da özünə turistləri gəlb edir.

Geoloji strukturun münbitliyinə və vulkanizmin intensiv şəkildə baş verməsinə görə həm lava axmasından, həm də maqmanın çöküntülərindən Meksika faydalı qazıntılarla zəngindir. Əgər vulkanlardan Ermənistanın payına bol tuf daşı və pemza düşübsə, ona görə də acı taleyinə görə cənubi-şərq qonşusuna paxıllıqla baxırsa, Meksika onların püskürməsindən xeyli dərəcədə faydalanmışdır. Deyəsən, yerin təki də kimə nə vermək lazım olduğunu yaxşı bilir.

Meksika qiymətli metal yataqları ilə də zəngindir. Gümüş və qızıl, adətən, qurğuşun və sinklə, həm də mis və civə ilə bir yerdə olur, necə ki, kimberlit tapıldıqda, onun yanında hökmən almaz yataqları aşkar edilir, çünki kimberlitin 1500-dən çox cisminin 8–10 faizi özündə almaz daşıyır. Vulkan qaz püskürməsinin çökməsindən isə təbii kükürdün böyük yataqları əmələ gəlmişdir. Meksikada neft və qaz ehtiyatları müstəsna əhəmiyyətə malikdir. Ölkədə 200-ə yaxın neft və 40-dan çox qaz yataqları mövcuddur. Bu xammalların ehtiyatına görə Meksika Latın

Amerikasında yalnız Venesueladan geri qalır. Bütün neft yataqları ABŞ sərhədindən Meksika körfəzi sahili uzunu cənubi-şərqə çatan sol zolaq əmələ gətirir. Ölkədə həm də daş kömür ehtiyatları mövcuddur.

Şimal ərazisinin müxtəlifliyi də onun relyefinin fərqliliyi ilə əlaqədardır. Cənub en dairəsində olmasına baxmayaraq, Meksikanın şimal hissəsi subtropik-kontinental iqlimə malikdir. Bütün qalan ərazi isə tropik iqlim zonasındadır. Ölkədə yağıntının bölünməsi də olduqca qeyri-bərabərdir. Ölkənin şimali-qərbində yağıntı çox azdır, Kaliforniya yarımadasında isə heç 100 mm-ə çatmır. Mərkəzi Mesada isə tsiklonların təsiri altında 500–800 mm yağıntı düşür, onun 80 faizi iyun ayından sentyabr ayına qədər yağan yağışlardır, yay aylarında yağışın bolluğuna görə Meksika Çinlə müqayisə oluna bilər.

Meksikanın ən böyük çayı ABŞ ilə sərhəddə olan Rio-Bravo-del-Norte çayıdır. Su ilə daha yaxşı təmin olnmuş rayon isə Mərkəzi Mesadır. Ölkənin xeyli hissəsində rütubətli yay iqlimi üstünlük təşkil edir. Şərqdəki dağətəyi düzənliklərində fəlakətli daşqınlar baş verir.

Ayrı-ayrı rayonların bitki aləmi olduqca rəngarəngdir, qarışıqdır, «Meksika» adı da ispan və ingilis dilində bu mənanı verən sözə yaxındır. Quru və tikanlı kolluqlarla və ağaclarla yanaşı, burada bir neçə yüz kaktus növü, 140 növ aqava mövcuddur. Uzunmüddətli quraqlıq üçün onlar gövdələrində və yarpaqlarında rütubət ehtiyatı yığırlar. Şimali Meksika, görünür, kaktusların, aqavaların və yukaların məskənidir.

Demək olar ki, bütün kaktuslarda buxarlanmanı azaltmaq üçün yarpaqlar öz şəklini, onlarla təmasda olanlara batan tikanlara və ya tüklərə dəyişdirir. Bəziləri nəhəng tikanlı kirpilərə bənzəyirlər, onların diametri iki metrə çatır, digərləri isə xırda yumşaq tozcuqlardır. Onlardan bəziləri sütunlar və ya nəhəng şamdanlar kimi ucalır. Onların hündürlüyü 20 m-ə çatır. Başqaları isə, məsələn, opuntsi bir-birinin üzərinə saplanmış, kökələrə bənzəyən yarpaqlar toplumu görünüşünə malikdir. Bu fantastik «meşələrin» bəzəyi yalnız iri parlaq çiçəklərdir, düzdür, onlar bəzən gecələr açılırlar.

Kaktuslar təsərrüfatda geniş tətbiq olunur. Onlardan canlı çəpər kimi, mal-qara üçün yem kimi istifadə olunur, kaktus həm də yanacaqdır və hətta tikinti materialıdır. Qida kimi kaktusun şirəsindən, meyvəsinin ətindən istifadə olunur, gövdələri isə mahlıc almağa yarayır və farmakologiya sənayesində tətbiq olunur. Ondan hətta boyaq maddəsi – al-qırmızı karmin boyağı alırlar.

Aqavanın da bir çox növünün təsərrüfat əhəmiyyəti vardır. İki növündən möhkəm cod mahlıc alınır, mavi aqavadan isə geniş yayılmış yerli spirtli içki (pulke və sairə) hazırlamaq üçün şirə alınır. Mavi aqavanın kökündən alınan şirə qıcqırdılıb, xüsusi texnologiya sayəsində dünyada məşhur olan tekila arağı istehsal edilməsində istifadə olunur, Maqey aqavaları plantasiyalarda, xüsusən Yukatan yarımadasının şimalında becərilir.

Mərkəzi Mesada torpaqlar şumlanır və onlarda ənənəvi istehlak bitkiləri: paxlalılar, qarğıdalı, pomidor, həmçinin küncüt, araxis becərilir. Lakin burada torpaqlar həm də intensiv surətdə eroziyaya uğrayır.

Dağlardakı şam meşələri Meksikanın bitkiçilik resursları içərisində xüsusi təsərrüfat əhəmiyyətinə malikdir. Şam ağacı tikinti materialı kimi, həmçinin sellüloz – kağız və meşə - kimya sənayeləri üçün xammal kimi istifadə olunur. Hindu əhalisi isə hələ qədim zamanlardan indiyə kimi onu yanacaq kimi yandırır.

Meksika körfəzi sahilindəki düzənliklərdə portağal, banan, ananas, şəkər qamışı, yemiş ağacı adlanan papayyanın və digər tropik bitkilərin plantasiyaları vardır.

Ölkənin dağ tropik meşələrində çox sayda gözəl yabanı meyvə ağacları bitir. Bu meyvələr sitrus meyvələri ilə müqayisədə vitaminlə 15 dəfə çox zəngindir. Avakadonun meyvə ətində 30 faizə qədər yağ vardır, həm də karbohidratlarla, zülal və vitaminlərlə zəngindir. Xurmanın qohumu olan sapote də becərilir.

Cənub meşələrinin heyvan aləmi, əsasən, tropik olmayan mənşəyə malikdir. Burada meymunlara, pişik ailəsindən olan yaquara, tapirə, kisəli opossuma və qarışqa yeyənə rast gəlinir. Meksikalılar bazardan armodilyonu (zireh gəzdirən məməlini) satın alıb, əllərində başıaşağı, quyruğundan tutaraq aparıb, evdə bişirib yeyirlər – onlar bizdə keçmişdə rayon mərkəzlərində bazardan diri toyuq alıb, ayaqından tutub aparanlara bənzəyirlər.

Quş aləmi də olduqca zəngindir, ornitologiya elmi üçün hər cür tədqiqat sahəsi mövcuddur. «Uçan qiymətli daşlar» adlanan müxtəlif kolibrilər, əlvan rəngli tutuquşular, nəhəng parlaq dimdiyi olan tukanlar, qriflər (quzğunlar) vardır.

Sürünənlər, reptililər də həddən artıq çoxdur. Onların içərisində iquana kərtənkələsi seçilir, hindular onu bişirib ləzzətlə yeyirlər. Meksikanın sahillərini tutan dənizlərdə və okeanda isə böyük krevet, lanqust, dəniz xərçəngi və ilbiz ovu aparılır, açıq dənizdə isə tunes, sardina və digər növ balıqları tuturlar.

İnsanların təsərrüfat fəaliyyəti Meksika təbiətinə nəzərə çarpan dərəcədə ziyan vurmuşdur. Ona görə də təbiətin qorunması kimi vacib olan bir işə də artıq başlanmışdır. Ölkədə 50-dən çox milli park salınmışdır, onlar 800 min hektar sahəni əhatə edirlər. Dağlardakı və xüsusən sahillərdəki rayonların çoxu böyük istirahət və kurort əhəmiyyətinə malikdir.

Meksika bir ölkə kimi təkcə təbiətin rəngarəngliyi ilə deyil, həm də malik olduğu mədəniyyətlərin sintezi ilə seçilir. Meksika paytaxtında, irəlidə deyildiyi kimi, «Üç mədəniyyət» meydanı vardır. Bu, ona görə belə adlanmışdır ki, burada yerli hindu əhalisinin qədim mədəniyyət abidələri ilə yanaşı, müstəmləkə epoxasından olan ispan arxitekturası binaları və ən yeni tikililər yerləşir.

Yadelli imperatorun və siyasi xadimin oxşar taleləri

Meksika və onun paytaxtı öz keçmişinə, onun hər bir səhifəsinə hörmətlə yanaşır, minilliklərin xatirəsini, qorunan abidələrdə yaşatmağa çalışır. Meksikalılar böyük siyasi sarsıntılarla üzləşmiş, azadlıq sevən xalq yadellinin ona hökmranlıq etməsinə dözməmiş, kütləvi mübarizəyə qalxmışdı. 1861-ci ildə ingilis, fransız və ispan silahlı qüvvələri Meksikaya müdaxilə etmişdilər. 1864-cü ildə işğalçılar I Maksimilian Habsburqu Meksikanın imperatoru elan etdilər, o, Avstriya imperatoru Frants İosifin kiçik qardaşı idi. Yeni imperatorun hakimiyyəti yalnız fransız işğalı altında olan əraziləri əhatə edirdi. Fransız qoşunları xalqın müqaviməti nəticəsində 1867- ci ildə Meksikanı tərk etməyə məcbur oldu. Az sonra İ Maksimilian Habsburq əsir götürüldü və prezident Benito Xuaresin göstərişi ilə güllələndi.

Meksika həm də təqiblərdən qaçıb canını qurtarmağa çalışan bəzi siyasi xadimlərə sığınacaq verərkən, onların ömrünün bir qədər uzadılmasına şərait yaratmışdı. Belələrindən biri, 1929-cu ildə SSRİ-dən sürgün olunmuş L.D.Trotski idi. Trotski Oktyabr inqilabının qələbəsinin təşkilatçılarından biri və Qızıl Ordunun banisi idi. Onun başçılığı altında Vətəndaş müharibəsində ağqvardiyaçılara qarşı vuruşlarda «qırmızılar» xeyli qələbə qazanmışdılar. Leninin vəfatından sonra partiyadaxili mübarizə qızışanda Trotski partiyanın xəttinə qarşı çıxmış, İ.V.Stalin isə əksəriyyət tərəfindən dəstəkləndiyinə görə mübarizəni udmuş və öz rəqibinin sürgün edilməsinə nail olmuşdu. Trotski bir müddət İstanbul yaxınlığındakı adada yaşamış, sonra İsveçə getmiş, nəhayət, 1937-ci ildə Meksikada sığınacaq almağa müvəffəq olmuşdu. Ona bu məsələdə dostu, dahi rəssam Dieqo Rivera kömək etmişdi. 1934-cü il prezident seçkilərində qalib gələn Lasaro Kardenas (indi bu görkəmli demokrat generalın - ölkə prezidentinin adını daşıyan şəhər Sakit okean sahilində, Akapulkodan bir qədər şimalda yerləşir.) Riveraya yaxın olduğundan, Trotskiyə sığınacaq vermək barədəki onun xahişinə razılıq vermişdi. Lev Davidoviç Trotski arvadı Natalya Sedova ilə birlikdə Meksikaya gəldikdən sonra əvvəlcə Riveranın evində yaşamış, sonra Koyoakan qəsəbəsindəki kiçik həyəti olan və uca divarlarla qorunan evə köçmüşdü. İndi həmin ərazi Mexiko şəhərinin ərazisinə daxildir. Trotski Riveraya qarşı xəyanətə yol vermişdi, onun arvadı, rəssam Frida Kalo ilə intim yaxınlıq etmişdi və ona görə də əzablardan onu xilas etmiş dostunun evini birdəfəlik tərk etməli olmuşdu.

Lev Trotskinin Mexikodaki ev-muzeyi

Rusiyanın hökmranlığında olanlar əxlaq məsələlərində ümumi qaydalara məhəl qoymurdular, şəhvət hisslərinə asanlıqla tabe olurdular. Axırıncı çar II Nikolay balerina Matilda Kşesinskaya ilə intim yaxınlıq edirdi. Lenin inqilabçı ərli qadın İnessa Armand ilə sevişirdi, hətta qadının doğduğu oğlan uşağı sonralar Vladimir İlyiçin cavanlığını yada salırdı. Lakin Lenini və ya Trotskini Romanovlar sülaləsinin axırıncı imperator nümayəndəsi ilə müqayisə etmək ədalətsizlik olardı. Lenin inqilabda alim, elmdə inqilabçı idi, dünyanın ən böyük tarixi şəxsiyyətləri -Makedoniyalı Aleksandr, Qay Yuli Sezar, Çingiz xan və Napoleon belə onunla müqayisədə uduzurlar, çünki o, həmin dahi sələflərindən fərqli olaraq tarixin gedişini dəyişdirmişdi. Rusiyada yeni inqilabçı hökumətə - Xalq Komissarlar Sovetinə başçılıq edən Lenin həm də repressiyanın başlanmasına, əks mövqedə olan insanların məhvinə start vermiş, xeyli sayda görkəmli yaradıcı ziyalını, məşhur filosofları ölkədən sürgün etmişdi. Trotski özü də böyük intellektə malik olmaqla, istedadlı təşkilatçı idi.

Çar II Nikolay isə bir kəndi idarə etməyə qadir olmadığı halda, dünya ərazisinin altıda birində hökmranlıq edirdi. Onun fiziki ölçüləri də yaxşı rəy yaratmırdı, mərhum atasından fərqli olaraq ensiz çiyinləri vardı, boyu isə 152 sm. idi. 1905-ci ildə dinc nümayişi Peterburqda atəşə tutdurduğuna görə ona "Qaniçən Nikolay" deyirdilər. Rusiya hərbi donanması çar II Nikolayın təhqiramiz qaydada "makakalar" (meymunların kiçik bədənə malik olan xırda burunlu növü) adlandırdığı yaponlar tərəfindən 1905-ci ildə Tsusima boğazında alçaldıcı qaydada məğlub edilmişdi. Ümumiyyətlə o, fəaliyyət adamı deyildi, I Dünya müharibəsi vaxtı cəbhədə olarkən dövlət işləri ilə, ağır itkilərə məruz qalan ordunun problemləri ilə məşgul olmaq əvəzinə, arvadına intim detallarla dolu saysız-hesabsız məktublar yazırdı. Petroqrada qayıtdıqdan sonra da səfehlikərini davam etdirirdi, oğlu Alekseylə çarpayıda uzanıb, bərkdən səs çıxarmaq qaydasında otağın havasını korlamaqla məşğul olurdu. O, öz məğlubiyyətinə səriştəsizliyi ilə binövrə yaratmışdı, hakimiyyətdən getməyə mütləq qaydada məhkum idi.

Çar II Nikolay və arvadı Aleksandra mənfur bir adam kimi tanınan, şarlatan Qriqori Rasputinin, 1916-cı ildəki qətlinə qədər 8 il ərzində güclü təsiri altında olmuşdu. Bu savadsız, səriştəsiz adam dövlət işlərinə birbaşa müdaxilə edirdi. Çox sayda faktlar onu göstərir ki, çar, sükançısı olduğu qatarı - Rusiya adlanan nəhəng bir varlığı uçuruma sürməklə fəlakətə uğratdı. Onun Fransa kralı XVI Lui kimi dövlət rəhbərliyinə yaramaması Rusiyada monarxiyanın süqutuna, 300 illik Romanovlar sülaləsinin məhvinə səbəb oldu. Hər bir ölkənin tarixində II Nikolaya bənzərləri tapmaq çətin deyildir. Onlar dövlət başçısı kimi böyük və məsuliyyətli vəzifəni aparmağa qabiliyyətləri olmadığı halda, onu tutmağa can atsalar da, azacıq böhran mehi əsdikdə tezliklə tutduqları kürsü ilə vidalaşmalı olurlar, çünki ilk anda ancaq onun ləzzətinə, dəbdəbəli həyat yaşayacaqlarına ümid bəsləyirdilər, xalqa rəhbərliyin ağır yükünü daşımaqdan isə tam uzaq idilər. Çətin an onların yararsızlığını bütünlüklə açıb göstərir. Belələrinin səriştəsizliyinin ağır nəticələrinə görə isə haqqı heç də özləri deyil, bir qayda olaraq xalq ödəməli olur.

Trotskiyə gəldikdə, onun məhv edilməsi üçün sovet kəşfiyyatı bir sıra cəhdlər etmişdi. Böyük rəssam David Alvaros Sikeyrosun silahlı dəstəsi Mexikoda onun evinə hücum edib, otağı güllələbarana tutmuşdu. Arvadı Trotskini sürüyüb çarpayının altına saldığından ona xətər toxunmamışdı. Biz ev-muzeyində olarkən divarda avtomat atəşinin çox sayda izlərini gördük. 1940-cı ildə isə ispan mənşəli sovet agenti Ramon Merkader guya gənc jurnalist kimi Trotskidən professional məsləhətlər almaq üçün tez-tez onun evinə gəlirdi. Bir dəfə onun otağına girib, arxadan başına alpinist külüngü ilə (buzqıran külüng) zərbə vurmuş və onu qətlə yetirmişdi.

Meksikalı dostlarımızın təklifi ilə qaçqın siyasətçinin yaşadığı evdə və onun həyətində olduq. Onu elə həmin həyətdə də dəfn etmişlər və mərmər başdaşında «Leon Trotscy – 1979–1940» sözləri yazılmışdır. Həyəti hündürlüyü 4 metrə çatan, tikanlı məftillərlə haşiyələnən divarlar mühafizə edir.

Vətəndaş müharibəsində Trotski çox qanlar axıtmışdı. Rusiyada ilk ölüm düşərgələri və ordunun arxasındakı cəza dəstələri – «Zaqradotryad»lar da onun təşəbbüsü ilə təşkil olunmuşdu. Özü də nəticədə qətlin qurbanına çevrilməklə, həyatdan getmişdi. Yaşadığı həyətin belə qorunması göstərir ki, qisas alınacağından qorxan bu adam, təhlükəsiz saydığı sığınacaqda da öz ölümünə qədərki dövr ərzində də əslində məhbəs həyatı yaşamalı olmuşdu. Lakin o, Meksikada yaşadığı dövrdə bununla təskinlik tapa bilərdi ki, digər inqilab xadimlərindən bir neçə il çox yaşamışdı, onun silahdaşlarının əksəriyyəti 1930-cu illərin ikinci yarısında Stalin repressiyasının qurbanları kimi artıq həyatdan getmişdilər.

Ev, həyət, qəbir birlikdə rekviyem əhval-ruhiyyəsi yaradırdı, ancaq bir fikir də adamı izləyirdi ki, əli günahsız insanların qanına batmış bir adamın taledən başqa «mükafat» gözləməsinə də elə bir haqqı yox imiş. Onun Trotski soyadı da götürmədir, mənşəcə yəhudi olan onun əsl familiyası Bronşteyn idi. İlk dəfə

dustaqxanada yatdıqdan sonra, azad olunduqda həmin məhbəsin rəisinin familiyası olan Trotskini özünə soyad götürmüşdü. Bu soyad altında da o, geniş şöhrət qazanmışdı, inqilabın və sonrakı keşməkeşli həyatının əzablı yolları ilə addımlamışdı.

İmperator I Maksimilian Habsburqun və inqilab xadimi Lev Trotskinin həyatında oxşar cəhətlər olmasa da, öz qətlləri ilə cəzalandırılmaqla, həyatla heç də arzulamadıqları şəkildə vidalaşmalı olmuşdular. Onlar böyük ambitsiyalarla yaşayırdılar, lakin sonda taeyin acı hökmü ilə üzləşməli oldular. Çəkdikləri zəhmət ağacı çürük meyvə verdi və bu mənada onları ömürlük əzaba məhkum edilmiş qədim yunan mifinin qəhrəmanı Tantala bənzətmək olar. Axı Lidiya çarı Tantal da allahlar tərəfindən əbədi əzaba məhkum edilmişdi. Buna "Tantal əzabı" da deyirlər. O, xirtdəyinə qədər su içərisində olduğu və ağacdan sallanan meyvələri gördüyü halda yanğısını və aclığını söndürə bilmirdi, çünki su onun dodaqlarından kənara çəkilirdi, meyvəli budaqlar isə uzaqlaşırdı.

Bayram ərəfəsi və qüssə yaradan mərasim

Meksika–SSRİ dostluq cəmiyyətinin sədri olan professor xanım məni öz evinə qonaq dəvət etdi, bir nəfər nümayəndə heyətinin üzvü ilə ora getdim. Bu siyasi işlə məşğul olan qadın həm də qabiliyyətli ev sahibəsi idi və biz onun qonaqpərvərliyinə heyran qalmışdıq. Mənzilinin geniş zalında oturub, xeyli söhbət etdik. Söhbətdə cəmiyyətin digər rəhbər işçiləri də iştirak edirdi.

6 noyabrdan 7 noyabra keçən gecə isə mən Bakıya zəng vurdum, 9 saatlıq vaxt fərqinə görə paytaxtımızda səhər saat 9 idi. Mərkəzi Komitənin növbətçisi bildirdi ki, ənənəvi bayram nümayişi olmayacaqdır, büro üzvləri gəmidə Xəzər dənizinin sahil ətrafında gəcəzəklər və görünür, əvvəllər keçirilən hay-küylü bayramın bu dəfə belə bir surroqat növü seçilmişdi. Bu kiçik fakt ölkədəki quruluşun tənəzzülünün, əslində, süqutunun başlanğıcının əlaməti idi. Mixail Qorbaçovun quruluşu islahata uğratmaq istəyi baş tutmamış, onun özünü birbaşa sona çatdırmağa xidmət etmişdi. Qorbaçovun siyasi icadı olan SSRİ Xalq deputatları qurultayı bu prosesi sürətləndirən bir alətə çevrilmişdi. Ölkədə iş-güc yaddan çıxmışdı, axşamlar hamı Kremldəki, rejissoru və baş aktyoru SSRİ prezidentinin özü olan şouya tamaşa edirdi. Bu şou həm də hər yerdə müxalifətin güclənməsinə və fəallaşmasına şərait yaratmışdı. Rusiya Federasiyasının prezidenti V.V.Putinin sonralar «XX əsrin geosiyasi fəlakəti» adlandırdığı SSRİ-nin dağılması artıq böyük sürət götürmüşdü. Öz nartsizminin və populizminin qurbanı olan Qorbaçov Qərbə nəyin bahasına olursa-olsun xoş gəlmək üçün hər cür alçaldıcı güzəştlərə getməyə də hazır idi. Əslində o, birinci növbədə öz rus xalqına ağır xəyanət etməkdən də çəkinməmişdi, çünki SSRİ dağıldıqdan sonra Rusiyanın ərazilərindən kənarda, keçmiş sovet respublikalarında 25 milyon rus qalmışdı,

Pribaltika ölkələrində isə onlara hətta tuzemlər kimi baxılır, rusların ən mühüm insan hüquqları belə indiyədək pozulmaqda davam edir., Qorbaçov öz ilk prezident tituluna, «sonuncu» sözünü də əlavə etməklə, onun istehza və alçalma obyektinə çevrilməsinə də biganə qaldı. Bu biabırçı siyasi xadimə öz xalqının nifrəti ölçüyəsığmaz idi və sonralar Yeltsinə qarşı Rusiyanın prezidenti seçilmək üçün seçki kampaniyasına qoşulduqda, o, təhqiramiz sayılmalı olan 1 faiz səs almışdı. Qorbaçovun mazoxizmi ölkəyə çox baha başa gəldi. Yeganə uduş isə bir sıra xalqların əsrlərə davam edən imperiya əsarətindən azad olub, müstəqillik qazanması idi. Azərbaycan da daxil olmaqla, bütün keçmiş sovet respublikalarında müstəqil dövlətlər yarandı. Bir sıra xalqların Rusiya inqilabi ordusunun-Qızıl Ordunun işğalına qədər öz dövlətləri olmadığı halda, Şərq ölkələri içərisində Azərbaycanda 1918-ci ildə ilk dəfə əsl demokratik respublika yaranmışdı. Ona görə də Azərbaycan SSRİ parçalandıqdan sonra məhz öz keçmiş dövlətçiliyini bərpa etdi.

7 noyabrda Meksikadakı Sovet səfirliyinin geniş həyətində səfir «a la fonrchette» qaydasında böyük ziyafət düzəltmişdi. Məclisə Meksikanın paytaxt isteblişmenti də dəvət olunmuşdu. Bakıda qonaq olmuş Dantonla və bir neçə digər parlament üzvü ilə çox mehriban görüşdük. Dövlət bayramı günü olsa da, məclisdə bayram əhval-ruhiyyəsi yox idi. Elə bil ki, qonaqların hamısı ölüm ayağında olan xəstəni yoluxmağa gəlmişdi. Səfir Darusenkovun da davranışında nəsə bir təşviş hiss olunurdu. Bir gün əvvəl keçirilən və səfirin də iştirak etdiyi dostluq cəmiyyətinin iclasında isə yerli sollar çəkinmədən Qorbaçovun ünvanına ağır ittihamlar səsləndirmişdilər.

7 noyabrda Bakıda nümayiş keçirilməməsi barədə qeydlərim elə təsəvvür yaratmasın ki, buna görə mən hansısa təəssüf hissləri keçirir, pərişan olurdum. Əsla yox. Səmimi etiraf etməliyəm ki, bayram nümayişlərinə heç vaxt ürəkdən gələn loyallıq göstərməmişdim, baxmayaraq ki, qoyulmuş qaydaya görə nazir vəzifəsində olduğuma görə 7 il ərzində ildə iki dəfə keçirilən nümayişlər vaxtı Hökumət evi qarşısındakı yan tribunada, Mərkəzi Komitə katibi kimi isə 4 il müfafiq olaraq mərkəzi tribunada olmuşdum. Bununla heç bir qürur hissi keçirmirdim, bəziləri isə bu fərqlənmə imkanını bütün il boyu böyük həsrətlə gözləyirdi. Bəzi səhnələr isə heç cür xoşa gəlmirdi, xüsusən həkimlərin ağ kəpənəklər dəstəsi kimi ağ xalatda kütləvi qaydada tribuna önündən gəlib keçməsi məndə daxili etiraz hissləri oyadırdı. Nümayişin sonluğu da çox vaxt rəhbərlikdə narazılıq yaranmasına səbəb olurdu. Çünki əvvəlki izdihamdan əsər-əlamət qalmırdı, kiçik qalıq dəstəsi kərtənkələ quyruğuna bənzər qaydada xeyli müddət ərzində nümayişi yekunlaşdırırdı. Bu nəzərdə tutulan təntənəyə xələl gətirməyə bilməzdi.

Mərasim simvolun ən mühüm növüdür. Böyük Çin mütəfəkkiri Konfutsi mərasimləri yüksək qiymətləndirirdi, onların pozulmasını böyük qəbahət sayırdı. Sovet ideoloqları onun vəsiyyətinə daha canfəşanlıqla əməl edirdilər. Bayram nümayişinin ləğvi heç də könüllü qaydada baş verrmədi, ölkədə siyasi vəziyyət

dəyişmişdi, partiya artıq siyasi qüvvələrin özəyi hesab olunmurdu. Hər yerdə müxalifət güclənmişdi, əhali arasında da müəyyən nüfuz qazanmışdı. 1989-cu ilin Oktyabr bayramında Naxçıvanda iki nümayiş keçirilmişdi, rəsmi tədbirlə yanaşı Xalq Cəbhəsi də Haqq meydanında əks təyinatlı bir toplantı keçirmişdi.

Mən Moskvadakı 1971-ci ilin 7 noyabr nümayişində də iştirak etmişdim və aldığım təəssürat o qədər də xoş deyildi. Gurultulu təbliğata baxmayaraq, nümayiş iştirakçılarında elə bir şadlıq əhval-ruhiyyəsi gözə dəymirdi. Soyuq havada səhər tezdən hər kollektivdən olan adamlar təyin olunmuş yerlərə yığışırdı, sonra fasilələrlə meydana tərəf irəliləyirdi. Tarix muzeyinin yanından keçdikdən sonra uzaqdan görünən Mavzoleyin səmtinə yaxınlaşdıqda, milis işçiləri adamları qaçmağa məcbur edirdi, görünür bu da bir təhlükəsizlik tədiri rolunu oynayırmış. Ayağın zərbəsi ilə döşənmiş daşların üzərindəki lehmə, çirkli su paltarı batırırdı, hətta üzü də bulayırdı.

Quruluşun tətbiq etdiyi daşlaşmış mərasimlər islahata üğramadığından bəlkə də əvvəllər mövcud olan cəzbediciliyini, coşğunluq haləsini artıq itirmişdi. Əvvəlki xof da yoxa çıxmışdı, hətta bir nümayişdə Qorbaçovu güllə ilə vurmaq cəhdi də edilmişdi. Dekretlə təsis edilən, əslində məcburi xarakter daşıyan, süni, xalqın adətlərinə zorla calaq edilən belə kütləvi tədbirlər acı sonluqla da yekunlaşmalı idi.

Meksikanın təbii xüsusiyyətləri və tarixinə qısaca baxış

Meksika Şimali Amerikadakı Federal respublikadır, rəsmən Meksika Birləşmiş Ştatları adlanır. Ərazisi 2 milyon kv.km-ə yaxındır. Bu qəribə adlanan torpaq coğrafi cəhətdən Yer üzərindəki böyük səhra regionu hesab olunur. Onun ərazisini heç bir böyük çay kəsib keçmir və ölkənin əksər ərazisində su az olmaqla, çatışmır.

Tarixçilər və sosioloqlar razılaşırlar ki, metislərlə (hindu və avropalıların qanlarının qarışığı) kreollar (Amerikada doğulmuş avropalılar) arasında keçid mədəniyyət xüsusiyyətləri, bir nəzərə çarpan şəkildəki proporsiyalardan ibarətdir. Belə bir mülahizə də vardır ki, hətta «kiminsə damarlarında hindu qanı yoxdursa, bu, daim onun ruhunda mövcuddur».

Əhalinin mədəni cəhətdən vahidləşməsinə həm də hava və quru yol nəqliyyatı şəbəkəsinin mövcudluğu kömək etmişdi, dövlət isə çox sayda ştatı birləşdirdi.

Meksika qeyri-adi fiziki müxtəlifliyə malik ölkədir. Uzun dağ silsilələri, düzənliklər və iqlim müstəsnalığı ilə xarakterizə olunan Şimali Amerika qitəsinin təbii fenomeni ilə Mərkəzi Amerika və Karib dənizi regionunun tropik xüsusiyyətləri onu körpü kimi səciyyələndirir. Qərbi Syerra Madre və Şərqi Syerra Madre dağ silsilələri Meksikanın Sakit okean sahili boyu şimaldan cənubadək uzanır. Ölkədə həm də Transversal Vulkanik Dağ Silsiləsi mövcuddur. Meksika körfəzi boyu ilə isə sahil düzənliyi uzanır. Yukatan yarımadasında da sahildə çökək düzənliklər vardır.

Ölkənin torpaqları özünün yüksək dərəcədə dəmir oksidlərinə malik olması ilə tanınır. Tropik zona, demək olar ki, ölkənin yarısını tutur. Sakit okeanın, Meksika körfəzinin və Karib dənizinin suları ilə əhatə olunduğundan, sahildən əsən külək may və avqust ayları arasında tropik tufan əmələ gətirir.

Avropalılar gəlməmişdən əvvəl Amerika Meksikası bir sıra inkişaf etmiş mədəniyyətlərin vətəni olmuşdu. İspan işğalı vaxtından (1519–1521-ci illər), XIX əsrin əvvəllərindəki müstəqilliyə nail olunana qədər bu ölkə Yeni İspaniya vitse-krallığının bir hissəsi idi. Ona Meksikadan əlavə, həm də Filippin adaları, İspan Karib adaları və Birləşmiş Ştatların cənubi-şərqindəki Corciyanın hissələri, Kaliforniya daxil olmaqla, Birləşmiş Ştatların cənubi-qərbi daxil idi. İmperiya İspaniyanın Habsburq monarxları tərəfindən idarə olunurdu.

Avropa qitəsində baş verən hadisələr, İspaniyanın Napoleon tərəfindən işğal edilməsi Meksikaya da öz təsirini göstərdi. Mühüm yerli qiyam Migel İdalqo tərəfindən qaldırıldı, o, Dolores şəhərciyindəki kilsənin keşişi idi, «maariflənmiş» islahatçılar qrupunun mərkəzində dayanırdı. 16 sentyabr 1810-cu ildə İdalqo «Doloresin harayı» pamfletini dərc etdirdi. Bu sənəd Meksikanın İspan yarımadası tərəfindən idarə edilməsinə son qoyulmasına, irqlərin bərabərliyinə və torpaqların yenidən bölüşdürülməsinə çağırırdı. Meksikanın İstiqlaliyyət günündə bu hadisə milli bayram rəmzi kimi seçildi.

İdalqo Meksikanın ispanlar tərəfindən allahsız hesab etdiyi fransızlara verilməsindən qorxub, öz ardıcıllarına Meksika bakirəsi, Qvadelupanın bizim Xanımı uğrunda vuruşmağı və ölməyi tapşırdı. İdalqo özünün kiçik şəhərciyini tərk edəndə, on minlərlə adam onun bayrağı altına yığılmışdı.

Migel İdalqo

Quana Xuato şəhəri müstəmləkə mədən sənayesinin başlıca mərkəzi idi, orada ispanlar və kreollar yaşayırdılar. İdalqonun zəbt etdiyi ticarət malları anbarında royalistlər əvvəlcə öz barrikadalarını qurmuşdular. Qiyamçılar 30 min nəfərdən ibarət olmaqla, istehkamı aldılar və içəridəki 500 ispanı öldürdülər. Kreol elitanın əksəriyyəti qətlə yetirildi və şəhər soyğunçuluğa məruz qaldı, kreollar da ispanlar kimi böyük zərər çəkdilər.

İdalqo qiyamının yatırılması üçün vitse-kralın cəhdlərinə köməklik göstərildi. Royalist qüvvələr İbalqonu ona xəyanət edənin köməkliyi ilə 18 yanvar 1811-ci ildə Kalderon körpüsündə məğlub etdilər. 19 martda onun özü, qiyamın digər liderləri ilə birlikdə həbs edildi. 31 iyulda isə İdalqo edam edildi, bu vaxt onun 58 yaşı var idi. Bununla da siyasi vətəndaş müharibələrinin birincisi sona çatdı.

Bir qədər sonra, 1813-cü ildə Napoleon qoşunları İspaniyadan geri çəkildi. Kral VII Ferdinand sürgündən geri qayıtdı və 1814-cü ildə yenidən taxt-taca çıxdı. Onun ilk hərəkətlərindən biri 1812-ci ildə Kortes (parlament) tərəfindən qəbul edilmiş Konstitusiyanı ləğv etmək oldu. Fransızların getməsi Meksikada Morelos inqilabının məğlub edilməsinə şərait yaratdı. İnqilabçılar 1813-cü ildə Meksikanın İspaniyadan müstəqilliyi barədəki Deklarasiyanı elan etmişdilər. Xose Mariya Morelos ispanlar tərəfindən əsir götürüldü və 1815-ci ildə edam edildi. Meksika İstiqlaliyyəti 1820-ci ildə qələbə çaldı. VII Ferdinand isə məcbur edildi ki, 1812-ci il liberal Konstitusiyasını bərpa etsin.

Mexiko. İstiqlaliyyət abidəsi

1821–1824-cü illərdə İturbudanın balçılığı altında Mərkəzi Amerikanın daxil olduğu imperiya yaradıldı. Aqustin İturbuda yıxıldıqdan sonra Meksika siyasətçiləri müəmmalı şəxsiyyət olan Antonio de Santa Annanın ətrafında birləşdilər. O, xarizmatik bir general idi. Federalistlərlə ittifaqa girib, 1833-cü ildə prezident seçilmişdi. O, prezident kürsüsünə əyləşdikdən sonra antiklerikal qanunvericiliyi ləğv etdi. Onun prezidentliyi dövründə Texas üzərində çətinliklər başlandı. Əlverişli şərtlər altında 30 min nəfər Birləşmiş Ştatlar mühaciri bu səhra ərazisini məskunlaşdırmışdı. Onların sayının daha da artması təhlükəsindən qorxan Meksika hökuməti 1830-cu ildə sonrakı mühacirləri sərhəddə dayandırdı və texaslılar üzərinə ağır məhdudiyyətlər qoydu ki, bu da Meksika konstitusiyasına zidd idi. 1836-cı ilin martında Texas özünü müstəqil respublika elan etdi və Santa Anna həmin günlərin aparıcı hərbi şəxsiyyəti olmaqla, qiyamı yatırtmaq istədi. Ordu toplandı, lakin 1836-cü ilin aprelində Texas qüvvələri tərəfindən o, məğlub edilib, əsir götürüldü. Sonra isə nəticədə azad olundu. Texası yenidən zəbt etmək üçün Meksika sonra heç bir cəhd etmədi, yalnız onun müstəqilliyini tanımaqdan imtina etdi.

Mexiko. Palasio Nasional

1836-cı ildəki və 1846–1848-ci illərdəki Meksika müharibəsindən sonra Meksika öz ərazisinin böyük bir hissəsini ABŞ-ın xeyrinə itirdi. 1858–1861-ci illərdə kilsəni və dövləti bir-birindən ayırmaq üçün vətəndaş müharibəsi getdi. Vətəndaş müharibəsində Benito Xuaresin başçılığı altında qalib gələnlər modern dövlət qurmağa nail oldular. 1863-cü ildə fransız qüvvələri Mexiko şəhərini işğal etdilər. Avstriya ers-hersoqu I Maksimilian Habsburq, Melsikaya 1861-ci ildə başlanan ingilis-fransız hərbi müdaxiləsi nəticəsində 1864-cü ildə özünü imperator elan etdi. Lakin onun hakimiyyəti yalnız fransızların işğalı olan ərazilərlə məhdudlaşırdı. Fransızlar sonra geri çəkiləndə marionet prezidentin dayaqları da uçdu. 1861-72-ci illərdə ölkənin prezidenti olan, Meksikanın milli qəhrəmanı Benito Xuaresin göstərişi ilə Maksimilian meksikalılar tərəfundən güllələndi.

1910–1917-ci illər inqilabından sonra Porfirio Diasın diktatorluğu quruldu. 1938-ci ildə prezident Lasaro Kardenas neft sənayesini milliləşdirdi.

Ölkə 6 illiyə seçilən prezident tərəfindən idarə olunur və 500 nəfərlik Deputat palatasından ibarət iki palatalıq Konqressi vardır.

Toltek şəhəri Tula

Bizi vaxtilə Meksikadakı Tolteklərin qədim paytaxtı olan Tulaya apardılar. Bu şəhər 900-cü ildən 1200-cü ilə qədər mühüm yaşayış məntəqəsi olmuşdu, indiki İdalqo əyalətində yerləşir. Bəzi alimlər isə onu Mexikonun yerində vaxtilə mövcud olmuş Tenoçtitlan şəhərinin kənarı hesab edirlər. Ən azı, üç kvadrat mil ərazini tutan şəhərdə, güman ki, bir neçə min əhali yaşayırdı.

Tula şəhəri. Atlantların heykəli

Başlıca mülki mərkəzdə, iri meydanın qonşuluğunda məbəd-piramida yerləşirdi və məbəd Toltek allahına həsr olunmuşdu. Başqa tikililər Saray Kompleksi də daxil olmaqla, digər iki məbəd-piramidadan ibarət idi. Meydanın mərkəzində platforma üzərində mehrab var idi.

Əsas məbəd - piramida Tula arxitekturası üslubunda idi. Kiçik olmasına baxmayaraq, piramida yüksək dərəcədə bəzədilmişdi. Terrasın tərəfləri rəsmlərlə, pişik ailəsindən olan gəzişən heyvanların və itlərin təsvirləri ilə, ilanın udmağa çalışdığı, onun çənələrindən bayıra çıxan insan sifətini əks etdirən heykəltəraşlıq frizləri ilə örtülmüşdü. Cənuba gedən yolun üstündəki məbədin otaqlarının qapısı özünü nümayiş etdirən döyüşçü formasındakı dörd sütun üzərində dayanmışdı. Bu döyüşçülərin hər biri 15 fut hündürlüyündə idi, bədənə aid yüksək spesifik ornamentlərlə və Tula üslubundakı şəxsi ləvazimatlarla bəzədilmişdi.

Biz geniş estakada meydançasında ucaldılan bu döyüşçü heykəl fiqurlarına böyük maraqla tamaşa etdik. Onların baş geyimləri, paltarı müasir kosmonavtların kosmosa səfər edərkən geyindikləri qoruyucu kostyumu və onun üstündəki ləvazimatı xatırladırdı. Baş geyimi skafandra, daha çox kosmonavtların dəbilqəsinə bənzəyir. Bu beş metrlik fiqurların yanında adam çox kiçik görünür. Adama elə gəlir ki, toltek heykəltəraşları kosmosdan yerə enmiş digər planetlərin

nümayəndələrinin portretlərini yaratmışlar. Bu döyüşçü heykəlləri hündür daş meydanda bir-birindən aralı dayansa da, elə bil ki, sıraya düzülmüşdür. Onların kürəyini qalxan örtür, döşlüyünü isə abstrakt kəpənək təsvirləri bəzəyir. Baş geyimi lələklərdən ibarətdir. Həmin döyüşçülərin başlarında telekommunikasiya cihazlarına bənzər ləvazimat, həmçinin geyimlərinin müasir kosmonavt kostyumlarına bənzəməsi, onları vizual qaydada təkrar etməsi bu döyüşçülərin başqa planetlərdən Yerə səfər etmiş sakinlər təsirini bağışlayır. Fiqurası Yer adamına oxşasa da, geyimi, əlbəsələri tam fərqlidir, elə bil ki, qədim yunan mifologiyasındakı atlantlardan bir neçəsi ayrılıb burada qalmışdır.

Biz geniş estakada meydançasına qalxdıq, bu döyüşçü-atlant heykəllərini hər tərəfdən seyr etməyə müvəffəq olduq. Bəzi alimlər güman edirlər ki, Günəş allahın döyüşçü-keşişi barədəki atsteklərin konsepsiyası da birbaşa Tula xalqından əxz edilmişdir.

Meksikalılar özlərinin məlum üç irqə deyil, dördüncü irqə aid olduqlarını iddia edirlər və əcdadlarının kosmosdan gəlməsi versiyasına müəyyən inamla yanaşırlar. Mexikonu bəzəyən heykəltəraşlıq əsərlərindən biri də oturmuş kişini təsvir edən «İrq» heykəlidir. Bəzi xalqlar öz əcdadlarını totemlər ilə eyniləşdirirlər, məsələn, türklər öz başlanğıclarının boz qurddan əmələ gəldiyi ideyasına böyük ehtiramla yanaşır, onin xüssiyyətlərini öz davranışlarında təkrar etmələri ilə öyünürlər, totemi, az qala, müqəddəsləşdirirlər. Totemizm qəbilə cəmiyyətinin inanc və mərasimlər kompleksi olmaqla, insan qrupları və totemlər – heyvan və bitki növləri arasında olan qohumluq anlayışı ilə əlaqədərdır. Hər qəbilə öz totеminin adını daşıyırdı.

Türkiyədə totemə hörmət əsasında Alparslan Türkeşin liderliyi dövründə Milliyətçi Hərəkat Partiyasının üzvləri özlərini boz qurdlar adlandırırdılar. Onların bəziləri millətçiliyə uyğun gəlməyən hərəkətlərə də yol verirdilər. Avropa ölkələrində yaşayan türklər maddi təmanna üstündə onların zorakılığından narazılıq edirdilər. 40 il əvvəl Amsterdamda tanış olduğumuz kiçik xırdavat mağazasının sahibi bu barədə nifrət hissini gizlədə bilmədən danışırdı. Xalq Cəbhəsinin hakimiyyəti dövründə Azərbaycanda da radikal cəbhəçilər özlərini boz qurd hesab edir, türk silahdaşlarında olan kimi salam jestini sağ yumulmuş əlin şəhadət və kiçik barmaqlarını canavar qulaqlarına bənzər qaydada nümayişkaranə surətdə qaldırmaqla icra edirdilər. Şəmkir rayonundan keçən beynəlxalq yolun üstündə hətta boz qurda heykəl də qoyulmuşdu. Dünya şəhərlərində dəbdə olan şir heykəlləri əvəzinə bizdə totemə hörmət əlaməti olaraq canavara üstünlük verilmişdi. Bu sahədə biz özümüzü hindular kimi aparmışdıq, axı onlar da quş totemlərinə xüsusi ehtiram bəsləyirlər. Lakin hindu totem dirəklərində təsvir olunanlardan fərqli olaraq, boz qurdun heykəl variantının ömrü qısa oldu, həmin totemə aludəçilik də tədricən azaldı.

ABŞ-ın və Kanadanın şimali-qərb sahillərində hindular öz yaşayış məntəqələrində gözəl sənət əsərləri təsəvvürü yaradan totem dirəkləri ucaldırdılar.

Ağacda yonulan, əslində nəqş edilən mücərrəd şəkildəki insan, quş və heyvan başları, dirəyi bir neçə səviyyədə bəzəyir. Bu dirəklər tayfanın qüdrətini nümayiş etdirirdi. Təsvir edilən həmin fiqurlar Meksika hindularının mücərrəd heykəltəraşlıq və rəsm nümunələrini yada salırlar.

Hər bir xalq öz tarixinin balanğıcında hansısa heyvan və ya bitki növünü özünə totem kimi seçir. Niyə onda bəs meksikalılar öz mənşələrini kosmosla, digər planetlə əlaqələndirməsinlər. Axı burada qəbahətli bir şey yoxdur, başqaları heyvan və bitki növü ilə qohum olmalarını secirlərsə, meksikalılar da özlərinin mənşəyini daha uca varlıqda görürlər. Xalqlar özlərinin meydana gəlməsi barədə bəzən hətta ağılasığmayan rəvayətlər yaradır və sonrakı nəsillər də onu təkzib etmək istəməyib, qədim ənənələrə sədaqət göstərmək xüsusiyyətini vacib hesab edirlər. Ona görə də xalqlar ailəsində keçmişin irsi kimi totem təsəvvürü də qalmaqdadır və heç kəsə mane olmadığına görə onlara yalnız hörmətlə yanaşmaq lazımdır.

Nəhayət, Meksika ilə vidalaşmaq anı gəlib çatdı. Axşamüstü hərəkətin daha da intensivləşməsinə görə maşını tıxaca düşdüyündən SSRİ səfiri xanımı ilə birlikdə bizi yola salmağa gecikmişdi və biz yerlərimizdə oturub uçuşu gözləyəndə onlar təyyarə salonuna girdilər və bizə çox mehribanlıqla «yaxşı yol» arzuladılar. Nümayəndə heyyətinin üzvləri səfirin bu ehtiram nümayişinə təəccüblənmişdilər və bunu özlərinə rəhbərlik edən adamın diplomatik bacarığı kimi qiymətləndirirdilər. Mən isə bunu səfirə xas olan alicənablığın təzahürü hesab edirdim. Yenə də uzun yolla qayıtdıq, əvvəlcə Havana, sonra isə Şennon təyyarə limanında qısa müddətə dayanmalı olduq.

Meksika ecazkar bir ölkədir, onun hər qarışında bir sirr, həm də sehr vardır. Təbiəti də, səmimiyyəti və sadəlikləri ilə seçilən adamları da xoş təəssüratları ilə yaddaşlara həkk olunduğundan, bu xatirələr itmir, yoxa çıxmır. Biz ona görə də bu gözəl ölkəyə « Adies, Mexico!» – «Əlvida, Meksika!» demədik, ”Muchas qrasias, Mexico! – «Çox sağ ol, Meksika!» dedik və bu, heç şübhəsiz, ürəkdən gələn sözlər idi.

SON

Sentyar 2018 –ci il